# XƏZƏR XƏBƏR

May 2026

№ 461

# KHAZAR REVIEW




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# XƏZƏR UNİVERSİTETİNDƏ ƏLİYAR QARABAĞLININ 125 İLLİK YUBİLEYİ

## (*FOTOSESSİYA*)













(*Mətn səh.26-da*)

# 125TH ANNIVERSARY OF ALIYAR GARABAGLY COMMEMORATED AT KHAZAR

## (*PHOTOSESSION*)












(*Text on page 26*)

# İÇİNDƏKİLƏR

Xəzər Universitetinin rektoru beynəlxalq konfransda ....6
Türkiyə universitetlərində işgüzar görüşlər ....7
"Gedim bir az ağlayım": romans və poeziya görüşü ....9
Xəzər Universitetinin rektoru Gəncədə Beynəlxalq forumda və konfransda ....10
Cavanşir Quliyevin 75 illiyi ....12
Prof.Akad. Hamlet İsaxanlı Azərbaycan Yazıçılar Birliyində tədbirdə ....13
"Xəzər"in tələbələri müsabiqədə ....14
Xəzər Universiteti İnşaat materialları elmi tədqiqat və sınaq laboratoriyasının müdiri Dr. Rasim Bayramlıya ....15
Xəzər Universiteti peşəkar kadr hazırlığında mühüm tərəfdaşlığa imza atıb ....16
Xəzər Universitetində beynəlxalq simpozium ....18
Xəzər Universiteti və SİSU birgə Korpus Tədqiqat Mərkəzi yaratdılar və 2-ci CİSMA konfransını keçirdilər ....22
Xəzər Universitetində Əliyar Qarabağlının 125 illik yubileyi ....26
Prof.Akad. Hamlet İsaxanlı beynəlxalq elmi konfransda ....30
"Xəzər"ə təşəkkür məktubu ....33
Xəzər Universitetinin rektoru Londonda Forumda: beynəlxalq təhsil transformasiyasında liderlik ....34
Xəzər Universitetində WUF-13 çərçivəsində "Gənclər evini axtarır" mövzusunda beynəlxalq layihə....35
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ....38
*Aysel Hüseynli.* Məzunların cəlb edilməsi universitetin inkişafında əsas amil kimi (*ingilis dilində*) ..40
Türkiyəli PhD tələbələri Xəzər Universitetində təcrübə proqramını bitiriblər ....42
Departament müdirinin Bakı Dövlət Universitetində (BDU) seminarı ....43
Rumın-Amerikan Universitetinin nümayəndəsi Xəzər Universitetində ....46
Xəzər Universitetində isveçrəli yazıçı Regina Düriq`in vorkşopu keçirilib ....48
Kapital Bank nümayəndəsinin "Xəzər"də seminarı ....50
Erasmus+ mübadilə proqramı çərçivəsində görüş....52
"Xəzər"də "Sirli gedişlər" kitabının müzakirəsi ....54
"Xəzər"in magistrantları elmi konfransda ....56
Xəzər Universitetində Azərbaycan X Beynəlxalq Psixologiya Konfransı ....58
*Xankişi Məmmədov*. Mübariz Cəfərlinin hekayələrində qeyri-səlis məntiq və idrakın çoxqatlı modeli ....66

*Jurnalın üz qabığında: Zaur Əhmədov, Xaqan Əliyev (mətn səh. 14-də)*

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Qəzənfər Paşayev
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


**Rector of Khazar University at International Conference** ........ 6
**Business Meetings at Turkish Universities Concluded** ........ 7
**"Let Me Go and Cry for a While": A Romance and Poetry Evening** ........ 9
**Rector of Khazar University at International Forum and Conference in Ganja** ........ 10
**75th Anniversary of Javanshir Guliyev** ........ 12
**Prof. Acad. Hamlet Isakhanli at Event of Union of Writers of Azerbaijan** ........ 13
**Khazar Students at Competition** ........ 14
**To the Director of the Construction Materials Scientific Research and Testing Laboratory of Khazar University Dr. Rasim Bayramli** ........ 15
**Khazar University Sign Major Partnership for Professional Training** ........ 16
**International Symposium at Khazar University** ........ 18
**Khazar University and SISU Launch Joint Corpus Research Center and Held 2nd CISMA Conference** ........ 22
**125th Anniversary of Aliyar Garabagly Commemorated at Khazar** ........ 26
**Hamlet Isakhanli at International Scientific Conference** ........ 30
**Congratulation Letter to Khazar** ........ 33
**Khazar University Rector at Forum in London: International Education Transformation Leadership** ........ 34
**International Project "Youth Seeks Home" Held at Khazar University in the Framework of WUF-13** ........ 35
**News of Institute of ANAS Named after Nizami (*in Azerbaijani*)** ........ 38
*Aysel Huseynli.* **Alumni Engagement as a Key Factor in University Development** ........ 40
**Turkish PhD Students Complete Internship Program at Khazar University** ........ 42
**Department Head's Seminar at Baku State University (BSU)** ........ 43
**Representative of Romanian-American University Visit Khazar University** ........ 46
**Workshop by Swiss Writer Regina Dürig Held at Khazar University** ........ 48
**Seminar by Kapital Bank Representative at Khazar** ........ 50
**Meeting Within Framework of Erasmus+ Exchange Programme** ........ 52
**Discussion of Book "Mysterious Moves" at Khazar** ........ 54
**Khazar University Master's Students at Scientific Conference** ........ 56
**Azerbaijan X International Psychology Conference at Khazar University** ........ 58
*Khankishi Mammadov.* **Fuzzy Logic and Multi-layered Model of Cognition in Stories of Mubariz Jafarli (*in Azerbaijani*)** ........ 66


*On the Cover of Journal: Zaur Ahmadov, Khagan Aliyev (text page.14)*


It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Gazanfar Pashayev
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli

**Computer graphics:**
Gunel Akbarova

# XƏZƏR UNİVERSİTETİNİN REKTORU BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva aprelin 10-da Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyinə həsr olunmuş "Qiymətləndirmə sistemləri: Etimad, şəffaflıq və innovasiya" mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak edib.

Təhsilin qiymətləndirilməsi və dövlət qulluğu sahəsində əldə olunmuş nailiyyətlərin və təcrübənin paylaşılması, eyni zamanda, bu istiqamətlər üzrə aktual məsələlərin müzakirəsi məqsədi daşıyan konfransda Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Misir, Cənubi Afrika Respublikası və Keniyadan, eləcə də müxtəlif beynəlxalq təşkilatlardan nümayəndələr iştirak edib.

Konfransı giriş sözü ilə açan Dövlət İmtahan Mərkəzi İdarə Heyətinin sədri Məleykə Abbaszadə təşkilatın son 10 ildə keçdiyi inkişaf yolundan bəhs edərək, qiymətləndirmə sisteminin cəmiyyət üçün əhəmiyyətini vurğulayıb.

Elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə mərkəzləşdirilmiş imtahan modelinin şəffaflıq və ədalətli rəqabət mühitinin formalaşmasında mühüm rol oynadığını qeyd edib.

Açılış mərasimində, həmçinin, beynəlxalq təşkilatların nümayəndələri və müxtəlif ölkələrin rəsmi şəxsləri çıxış edərək, təhsildə qiymətləndirmə və dövlət qulluğu sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

Konfrans çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin imtahan mərkəzləri arasında əməkdaşlığın gücləndirilməsinə dair Niyyət Protokolu imzalanıb.

Rəsmi açılış mərasimindən sonra panel müzakirələr və müxtəlif mövzular üzrə sessiyalar təşkil olunub. Sessiyalarda qiymətləndirmə sistemləri, rəqəmsallaşma dövründə insan kapitalının inkişafı, elektron imtahan texnologiyaları və digər aktual məsələlər müzakirə edilib.

# RECTOR OF KHAZAR UNIVERSITY AT INTERNATIONAL CONFERENCE

Khazar University Rector Dr. Razia Isaeva participated in the international scientific-practical conference titled "Assessment Systems: Trust, Transparency and Innovation," held on April 10, dedicated to the 10th anniversary of the State Examination Center.

The conference, aimed at sharing achievements and experiences in the fields of educational assessment and civil service, as well as discussing current issues in these areas, brought together representatives from Azerbaijan, Türkiye, Kazakhstan, Kyrgyzstan, Uzbekistan, Tajikistan, Egypt, the Republic of South Africa and Kenya, as well as from various international organizations.

Opening the conference with introductory remarks, Maleyka Abbaszade, Chair of the Board of Directors of the State Examination Center, spoke about the organization's development over the past 10 years and emphasized the significance of the assessment system for society.

Minister of Science and Education Emin Amrullayev, who addressed the conference thereafter, noted that the centralized examination model in our country has played a key role in fostering transparency and a fair competitive environment.

At the opening ceremony, representatives of international organizations and officials from various countries also delivered speeches, highlighting the importance of cooperation in the fields of educational assessment and civil service.

Within the framework of the conference, a Letter of Intent on strengthening cooperation among the examination centers of the member states of the Organization of Turkic States was signed.

Following the official opening ceremony, panel discussions and sessions on various topics were organized. The sessions addressed assessment systems, human capital development in the era of digitalization, electronic examination technologies, and other current issues.

# TÜRKİYƏ UNİVERSİTETLƏRİNDƏ İŞGÜZAR GÖRÜŞLƏR

# BUSINESS MEETINGS AT TURKISH UNIVERSITIES CONCLUDED

Aprelin 13-16-da Xəzər Universitetinin nümayəndə heyəti Türkiyənin bir sıra aparıcı ali təhsil müəssisələrində- Sabancı Universiteti, Yeditepe Universiteti, İstanbul Texniki Universiteti, Boğaziçi Universiteti və Koç Universitetində işgüzar görüşlər keçirib. Bu görüşlərdə əsas məqsəd akademik əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat layihələrinin inkişafı, tələbə və müəllim mübadiləsinin təşviqi və beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi olub.

Səfər aprelin 13- də Sabancı Universitetində görüşlə başlayıb. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının rəhbərlik etdiyi nümayəndə heyətinə universitetin rektoru Dr. Raziyə İsayeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova və Təbiət elmləri və mühəndislik

(*Ardı səh.8-də*)



*Fəxrəndə Əfəndiyeva, Hamlet İsaxanlı, Mehmet Durman, Raziyə İsayeva, Günel Bahəddinova, Burcu Atalay Emre*

From April 13 to 16, a delegation from Khazar University held business meetings at several leading higher education institutions in Türkiye - Sabancı University, Yeditepe University, Istanbul Technical University, Boğaziçi University, and Koç University. In this meetings the primary objectives were to expand academic cooperation, develop joint scientific research projects, promote student and faculty exchange, and strengthen international partnership ties.

The visit commenced on April 13 with a meeting at Sabancı University. The delegation, led by Prof. Acad. Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, included the University's Rector Dr. Razia Isaeva, Dean of the Graduate School of Science, Art and Technology Dr. Gunel Bahaddinova, and Dean of the School of Science

(*To be continued page 8*)

fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva daxil idi. Sabancı Universitetinin rəhbərliyi ilə keçirilən görüşlərdə akademik əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, eləcə də birgə tədqiqat və innovasiya layihələri müzakirə edilib. Nümayəndə heyəti, həmçinin, universitetin aparıcı tədqiqat laboratoriyaları ilə tanış olub və burada aparılan elmi fəaliyyətlər barədə məlumat alıb.

Aprelin 14-də nümayəndə heyəti Yeditepe Universitetində olub. Rektor Prof. Mehmet Durman ilə keçirilən görüşdən sonra tərəflər arasında əməkdaşlıq memorandumu imzalanıb. Görüşlərdə akademik əlaqələrin inkişafı, ikili diplom proqramlarının yaradılması və elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə edilib. Proqram çərçivəsində biotexnologiya laboratoriyasına da baş çəkilib.

Aprelin 15-də isə nümayəndə heyəti İstanbul Texniki Universiteti və Boğaziçi Universitetində olub. İstanbul Texniki Universitetində keçirilən görüşlərdə bakalavr, magistr və doktorantura səviyyələrində ikili diplom proqramlarının yaradılması, elmi əməkdaşlığın gücləndirilməsi və birgə tədqiqat imkanları müzakirə edilib. Kompüter və informatika mühəndisliyi fakültəsinin laboratoriyalarına da baş çəkilib. Həmin gün Boğaziçi Universitetində keçirilən görüşlərdə isə Data Elmləri və Süni İntellekt İnstitutu, eləcə də Beynəlxalq Əlaqələr Ofisinin nümayəndələri ilə akademik əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfərin son günü - aprelin 16-da "Xəzər"in nümayəndə heyəti Koç Universitetində olub. Burada keçirilən görüşlərdə beynəlmiləlləşmə, elmi-tədqiqat əməkdaşlığı və birgə proqramların inkişafı məsələləri müzakirə edilib. Görüşlərdə iştirak edən universitetin müxtəlif fakültə və beynəlxalq əlaqələr strukturunun nümayəndələri əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində aparılan müzakirələr və imzalanan razılaşmalar Xəzər Universiteti ilə Türkiyənin aparıcı universitetləri arasında akademik əlaqələrin daha da gücləndirilməsi, yeni birgə layihələrin həyata keçirilməsi və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm nəticələr əldə edildiyini göstərir.

and Engineering Dr. Fakhranda Afandiyeva. Meetings with Sabancı University's leadership covered academic cooperation, student and faculty exchange, as well as joint research and innovation projects. The delegation also visited the university's leading research laboratories and received briefings on the scientific activities conducted there.

On April 14, the delegation visited Yeditepe University. Following a meeting with Rector Prof. Mehmet Durman, a memorandum of cooperation was signed between the two parties. The meetings addressed the development of academic relations, the establishment of dual degree programs, and the expansion of scientific research cooperation. A visit to the biotechnology laboratory was also included in the program.

On April 15, the delegation visited Istanbul Technical University and Boğaziçi University. At Istanbul Technical University, discussions focused on the establishment of dual degree programs at the bachelor's, master's, and doctoral levels, the strengthening of scientific cooperation, and joint research opportunities. The laboratories of the Faculty of Computer and Informatics Engineering were also visited. On the same day, at Boğaziçi University, an exchange of views on academic cooperation prospects took place with representatives of the Data Science and Artificial Intelligence Institute, as well as the International Relations Office.

On the final day of the visit - April 16 - the Khazar University delegation was received at Koç University. The meetings there covered internationalization, scientific research cooperation, and the development of joint programs. Representatives from various faculties and the international relations structures of the university participated in the meetings and exchanged views on directions for cooperation.

The discussions held and agreements reached in the course of the visit indicate that significant outcomes have been achieved in terms of further strengthening academic ties between Khazar University and Türkiye's leading universities, implementing new joint projects, and expanding international scientific cooperation.

## “GEDİM BİR AZ AĞLAYIM”: ROMANS VƏ POEZİYA GÖRÜŞÜ

## "LET ME GO AND CRY FOR A WHILE": A ROMANCE AND POETRY EVENING





*Fəridə Məmmədova (Əməkdar artist)*

Aprelin 21-də Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində “Gedim bir az ağlayım” adlı romans və poeziya görüşü keçirilib. Görüş çərçivəsində romanslar və vokal əsərlərlə yanaşı, poetik mətnlər də səsləndirilib. Tədbirin təşəbbüskarı görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun tələbəsi, pianoçu və bəstəkar, Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müəllimi Sevda Rəhimova olub. Proqramda Azərbaycan bəstəkarlarının və müasir müəlliflərin əsərləri yer alıb. Görüş Ərtoğrul Balayevin ifasında prelüdlərlə açılıb.

Tədbirin aparıcısı musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən Oqtayqızı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının “İkimizdən birimiz” şeirindən söz açıb və şeiri təhlil edib. Qiraət ustası, şair Xəzər Süleymanlı isə həmin şeiri iştirakçıların diqqətinə çatdırıb. Müğənnilər Fəridə Məmmədova və İlham Nəzərov musiqisi Sevda Rəhimovaya məxsus “İkimizdən birimiz” adlı duet-romansı ifa ediblər.

Romans və poeziya görüşündə musiqisi Sevda Rəhimovaya, sözləri Leyla Əliyevaya məxsus əsərlər, eləcə də Xəzər Süleymanlının “Susma, danış” ifası və sözləri Gülər Əlvanqızına, musiqisi Aytən Oqtayqızına məxsus “Tanrım” kompozisiyası da dinləyicilərə təqdim olunub.

On April 21, a romance and poetry evening titled "Let Me Go and Cry for a While" was held at the Maqsud Ibrahimbeyov Creative Center. During the event, poetic texts were performed alongside romances and vocal works. The event was initiated by pianist and composer Sevda Rahimova, a student of distinguished Azerbaijani composer Arif Malikov. The program featured works by Azerbaijani composers and contemporary authors. The evening opened with preludes performed by Ertogrul Balayev.

The event's host, musicologist and Doctor of Philosophy in Art Studies Ayten Oqtayqizi, spoke about and analyzed the poem "One of the Two of Us" by Prof. Acad. Hamlet Isakhanli, founder and Chairman of the Board of Directors and Trustees of Khazar University. Recitation master and poet Khazar Suleymanlı then presented the poem to the audience. Singers Farida Mammadova and Ilham Nazarov performed the duet romance "One of the Two of Us," with music by Sevda Rahimova.

At the romance and poetry evening, works with music by Sevda Rahimova and lyrics by Leyla Aliyeva were also presented to the audience, along with Khazar Suleymanlı's "Don't be silent, speak" and the composition "My God," with lyrics by Guler Alvanqizi and music by Ayten Oqtayqizi.

# XƏZƏR UNİVERSİTETİNİN REKTORU GƏNCƏDƏ BEYNƏLXALQ FORUMDA VƏ KONFRANSDA

# RECTOR OF KHAZAR UNIVERSITY AT INTERNATIONAL FORUM AND CONFERENCE IN GANJA



*Raziyə İsayeva*

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva aprelin 23-də Gəncə şəhəri, Heydər Əliyev Mərkəzində "I Yaşıleko Beynəlxalq Forum"unda iştirak edib. Forum yaşıl iqtisadiyyat, dayanıqlı inkişaf və aqrar sahədə beynəlxalq əməkdaşlıq mövzularına həsr edilib.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Kənd Təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, FAO-nun Azərbaycandakı nümayəndəsi və tərəfdaşlıq və əlaqələndirmə ofisinin rəhbəri Muhamməd Nasar Hayat, Milli Məclisin deputatı Rizvan Nəbiyev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov, Xəzər Universitetinin rektoru Raziyə İsayeva və Macarıstan Kənd Təsərrüfatı və Həyat Elmləri Universitetinin (MATE) rektoru Csaba Gyuricza (videomüraciət vasitəsilə) çıxış ediblər.

Forum çərçivəsində "Green Concepts in Science and Education" mövzusunda panel təşkil olunub. Paneldə Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov və Xəzər Universitetinin rektoru Raziyə İsayeva çıxış edərək, elm və təhsildə yaşıl yanaşmaların tətbiqi məsələlərini müzakirə ediblər.

Dr. Razia Isaeva, Rector of Khazar University, participated in the "I GreenEco International Forum" held at the Heydar Aliyev Center in the city of Ganja on April 23. The forum was dedicated to the topics of green economy, sustainable development, and international cooperation in the agricultural sector.

Speeches were delivered by Zafar Gurbanov, Rector of Azerbaijan State Agrarian University; Adil Tagiyev, Deputy Head of Ganja City Executive Authority; Elchin Zeynalov, Deputy Minister of Agriculture; Muhammad Nasar Hayat, FAO Representative in Azerbaijan and Head of the Partnership and Coordination Office; Rizvan Nabiyev, Member of the Milli Majlis; Vilayat Valiyev, Rector of Azerbaijan Technical University; Anar Nagiyev, Rector of Baku Slavic University; Anar Eminov, Rector of Mingachevir State University; Razia Isaeva, Rector of Khazar University; and Csaba Gyuricza, Rector of the Hungarian University of Agriculture and Life Sciences (MATE) (via video address).

Within the framework of the forum, a panel was organized on the topic "Green Concepts in Science and Education." Vilayat Valiyev, Rector of Azerbaijan Technical University; Anar Nagiyev, Rector of Baku Slavic University; Anar Eminov, Rector of Mingachevir State University; and Razia Isaeva, Rector of Khazar University, took part in the panel and discussed issues related to the application of green approaches in science and education.

Forum iştirakçıları tədbirin yaşıl iqtisadiyyatın təşviqi, təhsil və aqrar sahədə innovativ yanaşmaların inkişafı, eləcə də beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

Həmi gün  Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva Gəncə Dövlət Universitetində "İnklüziv təhsildən inklüziv cəmiyyətə: dayanıqlı və inklüziv universitet modeli" mövzusunda IV Beynəlxalq elmi-praktiki konfransın regional bölməsində iştirak edib.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov və Xəzər Universitetinin rektoru Raziyə İsayeva çıxış edərək, inklüziv təhsilin inkişafı və universitetlərdə inklüziv mühitin formalaşdırılması istiqamətində fikirlərini bölüşüblər.

Eyni zamanda, Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə inklüziv təhsilin dövlət siyasətindəki rolundan bəhs edib. Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov isə regionda həyata keçirilən layihələr və inklüzivliyin təşviqi istiqamətində görülən tədbirlər barədə məlumat veriblər.

Tədbir çərçivəsində "Fərəh" sosial təşəbbüs qrupunun uşaqları tərəfindən bədii proqram təqdim olunub.

Sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib. İclaslarda inklüziv təhsilin müxtəlif aspektləri, dayanıqlı universitet modelləri və bu sahədə beynəlxalq təcrübələr müzakirə edilib.

Qeyd edək ki, konfransın əsas məqsədi inklüziv təhsil yanaşmalarının genişləndirilməsi, ali təhsil müəssisələrində əlçatanlığın artırılması və cəmiyyətin bütün üzvləri üçün bərabər imkanların təmin olunmasına töhfə verməkdir.

The forum participants emphasized the significance of the event in terms of promoting the green economy, advancing innovative approaches in education and the agricultural sector, as well as expanding international partnerships.

On the same day, Dr. Razia Isaeva, Rector of Khazar University, participated in the regional session of the IV International Scientific-Practical Conference on the theme "From Inclusive Education to Inclusive Society: A Sustainable and Inclusive University Model" at Ganja State University. Yusif



*Raziyə İsayeva*

Yusibov, Rector of Ganja State University; Anar Nagiyev, Rector of Baku Slavic University; Vilayat Valiyev, Rector of Azerbaijan Technical University; Zafar Gurbanov, Rector of Azerbaijan State Agrarian University; Anar Eminov, Rector of Mingachevir State University; and Razia Isaeva, Rector of Khazar University, delivered speeches and shared their views on the development of inclusive education and the establishment of an inclusive environment at universities.

Additionally, Parvin Karimzade, Member of the Milli Majlis and Vice-Rector for Science and Innovation at Ganja State University, addressed the role of inclusive education in state policy. Bayram Aslanov, Chairman of the New Azerbaijan Party's Ganja City Organization, and Elchin Karimov, Head of the Ganja-Dashkasan Regional Education Department, provided information on projects being implemented in the region and measures taken to promote inclusivity.

Within the framework of the event, an artistic program was presented by children from the "Farah" social initiative group. The conference then continued its work with panel sessions, during which various aspects of inclusive education, sustainable university models, and international practices in this field were discussed.

It should be noted that the primary objective of the conference is to contribute to the expansion of inclusive education approaches, the enhancement of accessibility in higher education institutions, and the provision of equal opportunities for all members of society.

# CAVANŞİR QULİYEVİN 75 İLLİYİ

# 75TH ANNIVERSARY OF JAVANSHIR GULIYEV

Azərbaycan Milli Konservatoriyasının Fikrət Əmirov adına Konsert zalında aprelin 23-də görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi, Xəzər Universitetinin professoru Cavanşir Quliyevin 75 illik yubileyi çərçivəsində “Bura Vətəndir” adlı konsert olub.

Bəstəkarın həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş edilib.

Tədbiri Azərbaycan Milli Konservatoriyasının Elm, Yaradıcılıq və Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Manafova aparıb.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, Əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova və Xəzər Universitetinin professoru, politoloq Ramiz Yunus iştirak ediblər.

Konsertdə Əməkdar artistlər Bəyimxanım Vəliyeva, Lalə Məmmədova, Emil Əfrasiyab, Nurlan Növrəsli, həmçinin, ifaçılar Mətanət Azmanlı, Zərrin Əliyeva, Ümid Mustafazadə, Sabinə Həsənzadə, Fatimə Əlizadə və Ramil Abbasov çıxış ediblər.

Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev tədbirin təşkilinə görə, Azərbaycan Milli Konservatoriyasının rəhbərliyinə və əməkdaşlarına təşəkkürünü bildirib, yubiley tədbirləri çərçivəsində keçirilən konsertlərin önəmli olduğunu və bugünkü sənət görüşünün də milli musiqi yaddaşında xüsusi iz buraxacağını vurğulayıb.

On April 23, a concert titled "This Is the Homeland" was held at the Fikrat Amirov Concert Hall of the Azerbaijan National Conservatory, marking the 75th anniversary of distinguished composer, Honoured Art Worker, and Professor at Khazar University, Javanshir Guliyev.

A video reel reflecting the composer's life and creative work was screened at the event.

The event was hosted by Gulnara Manafova, Head of the Centre for Science, Creative Work and International Relations at the Azerbaijan National Conservatory, and Doctor of Philosophy in Art Studies.




In attendance were Prof. Acad. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees; Zulfiyya Sadigova, Head of the Music and Arts Department at Khazar University, Honoured Teacher, and pianist; and Ramiz Yunus, Professor at Khazar University and political scientist.

Performing at the concert were Honoured Artists Bayimkhanim Valiyeva, Lala Mammadova, Emil Afrasiyab, and Nurlan Novrasli, as well as performers Matanat Azmanli, Zarrin Aliyeva, Umid Mustafazade, Sabina Hasanzade, Fatima Alizade, and Ramil Abbasov.

Honoured Art Worker and composer Javanshir Guliyev expressed his gratitude to the leadership and staff of the Azerbaijan National Conservatory for organizing the event, emphasizing the importance of concerts held within the framework of the anniversary celebrations and noting that the day's artistic gathering would leave a special mark in the memory of national music.

# PROF.AKAD. HAMLET İSAXANLI AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNDƏ TƏDBİRDƏ

# PROF. ACAD. HAMLET ISAKHANLI AT EVENT OF UNION OF WRITERS OF AZERBAIJAN

Azərbaycan Yazıçılar Birliyinin (AYB) “Natəvan” klubunda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqin anadan olmasının 145 illiyinə həsr olunmuş tədbir olub.

AYB-dən bildirilib ki, tədbir Azərbaycan Yazıçılar Birliyi və Abdulla Şaiqin mənzil-muzeyinin birgə təşkilatçılığı ilə keçirilib.

AYB-nin sədri, Xalq yazıçısı Anar çıxışında Abdulla Şaiqin Azərbaycan ədəbiyyatındakı xidmətlərindən danışıb.

An event dedicated to the 145th birth anniversary of Abdulla Shaig, a prominent representative of Azerbaijani literature, was held at the "Natavan" Club of the UWA.

The UWA announced that the event was jointly organized by the Union of Writers of Azerbaijan and the Abdulla Shaig Apartment Museum.

UWA Chairman, People's Writer Anar spoke at the event about Abdulla Shaig's contributions to Azerbaijani literature.



Tədbirdə çıxış edən AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı, filologiya elmləri doktoru, şair Zahid Xəlil və digərləri yazıçının çoxşaxəli fəaliyyətinin digər bir sahəsindən - ədəbiyyatşünas-alim kimi fəaliyyətindən bəhs ediblər.

Sonda Abdulla Şaiqin nəvəsi, Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə tədbirin keçirilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Tədbir bədii hissə ilə davam edib.

*https://aztv.az/az/news/90029149/abdulla-saiqin-145-illiyi-azerbaycan-yazicilar*

Speakers at the event - including Asif Rustamli, Head of Department at the ANAS Institute of Literature, Doctor of Philological Sciences and Professor; Hamlet Isakhanli, Doctor of Physical and Mathematical Sciences and Professor; Zahid Khalil, Doctor of Philological Sciences and poet; and others - addressed another dimension of the writer's multifaceted legacy: his activity as a literary scholar.

At the conclusion of the event, Ulkar Talibzade, granddaughter of Abdulla Shaig and Director of the Abdulla Shaig Apartment Museum, expressed her gratitude to all those who contributed to the organization of the event.

The event continued with an artistic programme.




*Xaqan Əliyev, Zaur Əhmədov*

## “XƏZƏR”İN TƏLƏBƏLƏRİ MÜSABİQƏDƏ

Azərbaycan Texnologiya Universiteti İnnovasiya Mərkəzinin təşkilatçılığı, Təhsilin İnkişafı Fondu və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə keçirilən Greentech III startap və Yaşıl texnologiyalar müsabiqəsi çərçivəsində Xəzər Universiteti tələbələrinin layihələri uğurla final mərhələsinə vəsiqə qazanıb. Müsabiqədə “Xəzər”i təmsil edən komandalar innovativ və ekoloji yönümlü layihələri ilə seçiliblər. Müsabiqənin final mərhələsi aprelin 24-də Gəncə şəhərində Azərbaycan Texniki Universitetində (ATU) keçirilib.

“Yüksəliş” komandası – Biotexnologiya ixtisası üzrə təhsil alan I kurs tələbələri Zaur Əhmədov və Xaqan Əliyev tərəfindən təqdim olunan BioPhyt layihəsi fitoremediasiya prinsipi əsasında çirklənmiş su mənbələrinin təmizlənməsinə yönəlmiş innovativ texnoloji həll yoludur. BioPhyt layihəsi müsabiqədə III yerə layiq görülərək, mükafatlandırılıb.

Digər finalçı layihə isə “Ecoshop” komandasına – Kimya və biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Aygün Muradovaya məxsusdur.

Xəzər Universitetinin tələbələrinin bu uğuru onların innovativ düşüncə tərzinin, ekoloji problemlərə həssas yanaşmasının və müasir texnologiyalardan effektiv istifadə bacarıqlarının bariz nümunəsidir.

## KHAZAR STUDENTS AT COMPETITION

Projects by Khazar University students successfully advanced to the final stage of the Greentech III Startup and Green Technologies Competition, held under the organization of the Azerbaijan Technology University Innovation Center and with the support of the Education Development Fund and the Youth Fund of the Republic of Azerbaijan. The teams representing Khazar University distinguished themselves with innovative and environmentally oriented projects. The final stage of the competition was held on April 24, at Azerbaijan Technical University (ATU) in the city of Ganja.




*Aygün Muradova*

The "Yüksəliş" team presented the BioPhyt project by first-year Biotechnology students Zaur Ahmadov and Khagan Aliyev - an innovative technological solution aimed at purifying contaminated water sources based on the principle of phytoremediation. It should be noted that the BioPhyt project was awarded third place in the competition.

The other finalist project belonged to the "Ecoshop" team, represented by Aygun Muradova, a fourth-year student majoring in Chemistry and Biology Teaching.

This achievement by Khazar University students stands as a clear testament to their innovative thinking, sensitivity to environmental issues, and ability to make effective use of modern technologies.

## XƏZƏR UNİVERSİTETİ İNŞAAT MATERİALLARI ELMİ TƏDQİQAT VƏ SINAQ LABORATORİYASININ MÜDİRİ DR. RASİM BAYRAMLIYA

**Hörmətli Rasim müəllim,**

Sizi və rəhbərlik etdiyiniz İnşaat materialları elmi tədqiqat və sınaq laboratoriyasının kollektivini ISO/IEC 17025:2020 "Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətlərinə dair ümumi tələblər" beynəlxalq standartının tələblərinə uyğun olaraq, uğurla akkreditasiyadan keçməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bu mühüm nailiyyət laboratoriyanızın yüksək peşəkarlığının, elmi yanaşmasının və keyfiyyətə verdiyi önəmin bariz göstəricisidir. Eyni zamanda, bu uğur Xəzər Universitetinin elmi-tədqiqat potensialının gücləndirilməsi, beynəlxalq səviyyədə tanınması və akademik nüfuzunun artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Sizin rəhbərliyiniz altında həyata keçirilən məqsədyönlü fəaliyyət və komandanızın əzmkarlığı nəticəsində əldə olunmuş bu akkreditasiya universitetimiz üçün mühüm bir ilkdir və gələcək uğurlar üçün möhkəm zəmin yaradır.

Bu münasibətlə sizə dərin təşəkkürümü bildirir, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**
*Dr. Raziyə İsayeva*
*Rektor*

## TO THE DIRECTOR OF THE CONSTRUCTION MATERIALS SCIENTIFIC RESEARCH AND TESTING LABORATORY OF KHAZAR UNIVERSITY DR. RASIM BAYRAMLI

**Dear Dr. Rasim Bayramli,**

I would like to extend my most sincere congratulations to you and the staff of the Construction Materials Scientific Research and Testing Laboratory under your leadership on the successful accreditation in accordance with the requirements of the international standard ISO/IEC 17025:2020 "General Requirements for the Competence of Testing and Calibration Laboratories."

This significant achievement is a clear testament to the high professionalism, scientific approach, and commitment to quality demonstrated by your laboratory. At the same time, this accomplishment is of particular importance in terms of strengthening Khazar University's research potential, gaining international recognition, and enhancing its academic standing.

This accreditation, achieved through the purposeful efforts carried out under your leadership and the dedication of your team, marks an important first for our university and lays a solid foundation for future successes.

On this occasion, I extend my deepest gratitude to you and wish you continued success in your future endeavors.

**Respectfully,**
*Dr. Razia Isaeva*
*Rector*




*Sərdar Hacıyev, Raziyə İsayeva*

# XƏZƏR UNİVERSİTETİ PEŞƏKAR KADR HAZIRLIĞINDA MÜHÜM TƏRƏFDAŞLIĞA İMZA ATIB

# KHAZAR UNIVERSITY SIGN MAJOR PARTNERSHIP FOR PROFESSIONAL TRAINING

Xəzər Universiteti baytarlıq sahəsində kadr hazırlığının gücləndirilməsi istiqamətində mühüm əməkdaşlığa başlayıb. Aprelin 28-də Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Memorandumun əsas məqsədi tələbələrin nəzəri biliklərinin praktik bacarıqlarla zənginləşdirilməsi, eləcə də elmi-tədqiqat fəaliyyətinin inkişaf etdirilməsidir. Anlaşmaya əsasən, tərəflər sahə baytar həkimləri, mütəxəssislər və tələbələr üçün müxtəlif təlimlərin təşkili, beynəlxalq təcrübənin tətbiqi, tələbələrin Agentliyin müvafiq strukturlarında təcrübə keçmələrinin təmin edilməsi istiqamətində birgə fəaliyyət göstərəcəklər. Xüsusi fərqlənən tələbələrin elmi layihələrə cəlb olunması və onların peşəkar inkişafına dəstək göstərilməsi də prioritetlər sırasındadır. Eyni zamanda, tərəflər xəstəliklərin idarə olunması, klinik-praktik və elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin icrası və akademik tədbirlərin təşkili istiqamətində

Khazar University has embarked on a significant collaboration aimed at strengthening the training of professionals in the field of veterinary medicine. On April 28, Khazar University Rector Dr. Razia Isaeva and Sardar Hajiyev, Chairman of the Agrarian Services Agency under the Ministry of Agriculture, signed a Memorandum of Understanding on mutual cooperation. The primary objective of the Memorandum is to enrich students' theoretical knowledge with practical skills, as well as to advance research activities. Under the agreement, the parties will collaborate on organizing various training programs for field veterinarians, specialists, and students, implementing international best practices, and ensuring that students undertake internships within the relevant structures of the Agency. Engaging distinguished students in scientific projects and supporting their professional development are also among the priorities. Additionally, the parties will expand cooperation in the areas of disease management, clinical-practical and research work, the implementation of joint projects, and the organization of academic events.

The Memorandum also encompasses the or-

əməkdaşlığı genişləndirəcək.

Memorandum qarşılıqlı səfərlərin təşkili, mövcud maddi-texniki bazadan birgə istifadə, elmi və praktiki xidmətlərin göstərilməsi, eləcə də yeni təşəbbüs və layihələrin həyata keçirilməsini də əhatə edir. Əməkdaşlığın səmərəli icrası üçün hər iki qurumun nümayəndələrindən ibarət İşçi Qrupu yaradılacaq və bu qrup layihələrin koordinasiyası ilə yanaşı, qarşılıqlı informasiya mübadiləsini təmin edəcək.

ganization of mutual visits, the joint use of existing material and technical resources, the provision of scientific and practical services, as well as the implementation of new initiatives and projects. To ensure the effective execution of the collaboration, a Working Group composed of representatives from both institutions will be established; this group will coordinate projects and facilitate the mutual exchange of information.

The meeting, held under the chairmanship



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlının rəhbərliyi ilə keçirilən görüşdə “Xəzər”in tədris işləri üzrə prorektoru Prof. Məhəmməd Nuriyev, fakültə dekanları-Dr.Çiçək Əliyeva, Dr.Fəxrəndə Əfəndiyeva, Dr. İnqilab Əhmədov, Dr.Milana Abbasova, departament müdiri Dr.Səbinə Məmmədova və Hasvet Baku International Animal Hospital`ın direktoru Mehmet Koçak iştirak edib. Görüş çərçivəsində tərəflər öz təqdimatları ilə çıxış edib, baytarlıq sahəsində mövcud müasir çağırışlar və əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə edilib. Eyni zamanda, universitetin Hasvet baytarlıq təbabəti fakültəsinin fəaliyyəti ilə tanışlıq olub, tələbələrlə görüş keçirilib və qarşılıqlı fikir mübadiləsi aparılıb.

of Khazar University founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, was attended by Khazar University Vice-Rector for Academic Affairs Prof. Muhammad Nuriyev, Faculty Deans Dr. Chichak Aliyeva, Dr. Fakhrandah Afandiyeva, Dr. Ingilab Ahmadov, and Dr. Milana Abbasova, Department Head Dr. Sabina Mammadova, and Mehmet Koçak, Director of Hasvet Baku International Animal Hospital. During the meeting, the parties delivered their respective presentations, and a wide-ranging discussion was held on contemporary challenges in veterinary medicine and the prospects for developing the partnership. In addition, participants were familiarized with the activities of the university's Hasvet Faculty of Veterinary Medicine, a meeting was held with students, and an exchange of views took place.

# XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ SİMPOZİUM

Aprelin 29-da Xəzər Universitetində Türkiyənin Qafqaz Universitetinin təşkilatçılığı, həmçinin, Türkiyənin Amasya Universiteti, Azərbaycanın AMEA Əlyazmalar İnstitutu, Gəncə Dövlət Universiteti, Azərbaycan İlahiyyat İns-



*Fərida Seyidova*

titutu və Özbəkistanın Beynəlxalq Buxara Universitetinin tərəfdaşlığı ilə "Türk dünyasında mədəniyyət və dəyərlərin izləri" 1-ci beynəlxalq simpoziumu keçirilib. İsmayıl bəy Qaspıralının "Dildə, fikirdə və işdə birlik" ideyası mövzusuna həsr olunmuş tədbir, Türk dünyasının tarixi köklərindən süzülüb gələn mədəni kodları və ortaq mənəvi dəyərləri müasir elmi müstəvidə bir araya gətirmək məqsədi daşıyıb.




*Mitat Durmuş*

# INTERNATIONAL SYMPOSIUM AT KHAZAR UNIVERSITY

On April 29, the 1st International Symposium on "Traces of Culture and Values in the Turkic World" was held at Khazar University, organized by Caucasus University of Türkiye, in partnership with Amasya University of




*Raziyə İsayeva*

Türkiye, the Institute of Manuscripts of ANAS of Azerbaijan, Ganja State University, the Azerbaijan Theology Institute, and the International Bukhara



*Muhammed Alparslan Kartal*

University of Uzbekistan. The event, dedicated to the theme of Ismail Bey Gaspirali's idea of "Unity in Language, Thought and Action," aimed to bring



Hibrid formatda təşkil olunan simpoziumda iştirak edən 143 alimdən 109-u Bakıdan əyani, 34-ü isə onlayn şəkildə müzakirələrə qoşulub. Beynəlxalq miqyaslı bu elmi toplantıda Azərbaycan və Türkiyə ilə



*Mehman Həsənli*

yanaşı, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tatarıstan, Malayziya və Əlcəzairdən olan tanınmış tədqiqatçılar öz elmi nailiyyətlərindən danışıb və təcrübələrini bölüşüblər.

Universitetin Mərmər zalında keçirilən tədbirin açılış mərasimində konfransın koordinatoru, Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun təmsilçisi Dr. Fəridə Seyidova simpoziumun elmi və siyasi əhəmiyyəti barədə danışaraq, yüksək səviyyəli evsa-

(*Ardı səh.20-də*)

together cultural codes and shared spiritual values that have filtered through the historical roots of the Turkic world within a contemporary scientific framework.

The symposium was organized in a hybrid format, with 143 participating scholars — 109 atten-




*Sərdarxan Cahangir*

ding in person from Baku and 34 joining online. At this international scientific gathering, prominent researchers from Uzbekistan, Kazakhstan, Kyrgyzstan, Tatarstan, Malaysia, and Algeria, alongside those from Azerbaijan and Türkiye, presented their scholarly achievements and shared their experience.

(*To be continued page 20*)

hibliyinə görə, təşkilat komitəsi adından universitet rəhbərliyinə minnətdarlığını bildirib. Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva çıxışında Türk dünyasına xidmət edən belə bir platformaya evsahibliyi etməkdən qürur duyduqlarını qeyd edib.

Rektor R. İsayeva universitetin beynəlxalq əlaqələrindən bəhs edərək, qurumun son illərdə bir tədqiqat universitetinə çevrilməsi yolunda atılan addımları konkret statistik göstəricilərlə diqqətə çatdırıb.

Konfransın təşkilat komitəsinin sədri, Qafqaz Universitetinin Xaraqani İnstitutunun direktoru Dos. Muhammed Alparslan Kartal Qafqaz Universitetinin rektoru Prof. Hüsnü Kapının salamlarını çatdıraraq, Türk-İslam vəhdətinin dövlətlərimizin inkişafındakı hərəkətverici rolunu vurğulayıb. O, konfransın təşkilat komitəsinin sədr müavinləri Dos. Murat Sarıgül, Dos. Məleykə Məmmədova və koordinator Dr. Fəridə Seyidovaya təşəkkür edib. Dos. Kartal rektor Raziyə İsayevaya üzərində Türk bayrağı toxunmuş xüsusi xalçanı “bayrağı əmin əllərə təslim edərlər” sözləri ilə hədiyyə edib. Qarşılıqlı hörmət əlaməti olaraq, Xəzər Universiteti adından da qonaqlara xatirə hədiyyələri təqdim olunub.

Tədbir Türk Dil Qurumunun üzvü, Qafqaz Universitetinin əməkdaşı Prof. Mitat Durmuşun nitqi ilə davam edib. Çıxışına “Azərbaycan ürəyimdə şah damardır” sitatı ilə başlayan professor, Türk dünyasının birliyi yolunda atılmalı olan strateji addımlardan bəhs edərək, konfransın bu hədəfə nail olunmasındakı rolunu yüksək qiymətləndirib.




At the opening ceremony held in the Marble Hall of the university, the symposium coordinator and representative of the Mevlana Literary-Philosophical Research Institute, Dr. Farida Seyidova, spoke about the scientific and political significance of the symposium and, on behalf of the organizing committee, expressed gratitude to the university leadership for their high-level hospitality. Khazar University Rector Dr. Razia Isaeva noted in her address that they were proud to host such a platform serving the Turkic world. Rector Razia Isaeva spoke about the university's international relations and highlighted the steps taken in recent years toward transforming the institution into a research university, citing specific statistical indicators.

The Chair of the symposium's organizing committee, Director of Caucasus University's Kharakani Institute, Assoc. Prof. Muhammed Alparslan Kartal, conveyed the greetings of Caucasus University Rector Prof. Husnu Kapi and emphasized the driving role of Turkic-Islamic unity in the development of their states. He expressed appreciation to the Vice-Chairs of the organizing committee, Assoc. Prof. Murat Sarigul and Assoc. Prof. Maleyka Mammadova, as well as coordinator Dr. Farida Seyidova. Assoc. Prof. Kartal presented Rector Razia Isaeva with a special carpet embroidered with the Turkish flag, accompanied by the words "the flag is entrusted to trusted hands." In a gesture of mutual respect, commemorative gifts were also presented to the guests on behalf of Khazar University.

The event continued with an address by Prof. Mitat Durmus, a member of the Turkish Language Association and a faculty member at Caucasus University. Beginning his speech with the quote "Azerbaijan is the aorta of my heart," the professor spoke about the strategic steps to be taken toward the unity of the Turkic world and highly commended the symposium's role in achieving this goal.

Assoc. Prof. Mehman Hasanli, Deputy Director for Scientific Affairs at the Institute of Literature named after Nizami Ganjavi of ANAS, emphasized the contemporary significance of scientific and cultural integration among Turkic peoples. He noted that



AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini Dos. Mehman Həsənli Türk xalqları arasındakı elmi və mədəni inteqrasiyanın müasir dövrdəki əhəmiyyətini vurğulayıb. O, bu qəbildən olan elmi tədbirlərin müxtəlif ölkələrin alimləri arasında birbaşa əlaqələrin qurulmasına xidmət etdiyini bildirərək, simpoziumun işinə uğurlar arzulayıb.

Amasya Universitetinin professoru Hasan Yerkazan da öz çıxışında Türk dövlətlərinin sarsılmaz birliyinin əhəmiyyətinə toxunub. Mərasimin sonunda Özbəkistanın Mirzə Uluğbəy adına Milli Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Prof. Sərdarxan Cahangir qardaşlıq və hörmət əlaməti olaraq, qonaqları Azərbaycan dilində salamlayıb. O, konfransın Türk birliyinin elmi əsaslarla gücləndirilməsi baxımından önəmini geniş təhlil edib.

Simpozium öz işini dil, ədəbiyyat, mədəniyyət, tarix, arxeologiya, sosiologiya, milli kimlik, din və fəlsəfə istiqamətləri üzrə 11 müxtəlif bölmədə davam etdirib. Müzakirələrdə türk boylarının qədim dövrlərdən bu günədək davam edən qarşılıqlı təsirləri fənlərarası kontekstdə təhlil edilib. Yekunda qeyd olunub ki, Azərbaycan, Türkiyə və Özbəkistanın elmi qurumlarının bu cür birgə təşəbbüsləri Türk dünyasının ortaq gələcəyinin mədəni və elmi təməllərini daha da sarsılmaz edir.

such scientific events serve to establish direct ties among scholars from different countries and wished the symposium every success.

Prof. Hasan Yerkazan of Amasya University also touched upon the importance of the unwavering unity of Turkic states in his remarks. At the close of the ceremony, Prof. Sardarkhan Jahangir, Vice-Rector for International Relations at the National University of Uzbekistan named after Mirzo Ulugbek, greeted the guests in the Azerbaijani language as a gesture of brotherhood and respect. He offered a detailed analysis of the symposium's significance in terms of strengthening Turkic unity on a scientific basis.

The symposium proceeded with its work across 11 different sections covering linguistics, literature, culture, history, archaeology, sociology, national identity, religion, and philosophy.

The discussions examined the mutual interactions of Turkic tribes from ancient times to the present day within an interdisciplinary context.

It was noted in conclusion that such joint initiatives by scientific institutions of Azerbaijan, Türkiye, and Uzbekistan further consolidate the cultural and scientific foundations of the Turkic world's shared future.

# XƏZƏR UNİVERSİTETİ VƏ SİSU BİRGƏ KORPUS TƏDQİQAT MƏRKƏZİ YARATDILAR VƏ 2-Cİ CİSMA KONFRANSINI KEÇİRDİLƏR

Xəzər Universiteti Şanxay Beynəlxalq Tədqiqatlar Universiteti (SİSU) ilə əməkdaşlıq çərçivəsində ardıcıl iki tədbir keçirmişdir. Birgə səylərin nəticəsi olaraq, yeni Korpus Tədqiqat




*Hamlet İsaxanlı*

Mərkəzinin rəsmi şəkildə yaradılması və 2-ci CİSMA konfransının uğurla yekunlaşması dil tədqiqatlarında innovasiyaya qarşı ortaq bağlılığı bir daha təsdiqlədi.

Təşəbbüs aprel ayının 29-da yüksək səviyyəli danışıqlarla başlamış, aprel ayının 30-da isə Anlaşma Memorandumunun (MoU) rəsmi imzalanması ilə davam



*Tamella Məmmədli*

Aprelin 13–14-də Ağstafa şəhərindəki Heydər Əliyev Mərkəzində AMEA Arxeologiya və Antropologiya İnstitutu, Ağstafa Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən "Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu" və "Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu"nun birgə təşkilatçılığı ilə görkəmli alim, paleolitşünas, Dos. Dr. Mansur Mansurovun anadan olmasının 90 illik yubileyinə və Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş "Gəncə–Qazax bölgəsinin arxeoloji və etnoqrafik tədqiqinin aktual problemləri" adlı beynəlxalq elmi konfrans keçirilib.

Azərbaycan, Rusiya, Ukrayna və Qazaxıstandan olan alimlərin iştirakı ilə keçirilən konfransda 70-dən artıq məruzə dinlənilib. AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dr.Yaqub Məmmədov "Azərbaycan paleolitşünaslığının yeni tədqiqat istiqamətlərinin formalaşmasında Mansur Mansurovun elmi irsi" və "Qazax paleolit arxeoloji ekspedisiyasının 2024-cü ildə Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində apardığı çöl tədqiqatlarına dair", həmçinin, AMEA Arxeologiya və Antropologiya İnstitutunun elmi işçisi, Xəzər Universitetinin Tarix və



*Yaqub Məmmədov*



# FACULTY MEMBERS OF DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

On April 13–14, an international scientific conference titled "Current Problems of Archaeological and Ethnographic Research in the Ganja–Gazakh Region" was held at the Heydar Aliyev Centre in Aghstafa. The conference was jointly organized by the ANAS Institute of Archaeology and Anthropology, the Aghstafa District Executive Authority, the Keshdagh State Historical and Cultural Reserve, and the Avey State Historical and Cultural Reserve both operating under the State Service for the Protection, Development and Restoration of Cultural Heritage under the Ministry of Culture of the Republic. The event was dedicated to the 90th birth anniversary of distinguished scholar and Palaeolithic specialist Assoc. Prof. Dr. Mansurov, as well as to the International Day for Monuments and Sites.

The conference, held with the participation of scholars from Azerbaijan, Russia, Ukraine, and Kazakhstan, featured more than 70 presentations. Dr. Yagub Mammadov, Leading Research Fellow at the ANAS Institute of Archaeology and Anthropology and lecturer at the Department of History and Archaeology at Khazar University, delivered presentations on "The Scientific Legacy of Mansur Mansurov in Shaping New Research Directions in Azerbaijani Palaeolithic Studies" and "On the Field Research Conducted by the Gazakh Palaeolithic Archaeological Expedition in the Territory of the Avey State Historical and Cultural Reserve in 2024." Additionally, Ulviyya Safarova, Research Fellow at the ANAS Institute of Archaeology and Anthropology and lecturer at the

arxeologiya departamentinin müəllimi Ülviyyə Səfərova "Makrolitik alətlərin öyrənilməsinin bəzi aspektləri" mövzularında məruzə ediblər.

Aprelin 14-də konfrans iştirakçıları Ağstafa rayonunun Dağ Kəsəmən kəndi ərazisindəki Son Tunc-Erkən Dəmir dövrünə aid Ağalıqtəpə yaşayış yerində Azərbaycan – Almaniya beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqatlarla tanış olublar. Qeyd etmək lazımdır ki, Ülviyyə Səfərova hazırda həmin arxeoloji ekspedisiyanın üzvü kimi tədqiqatlarda iştirak edir.

Department of History and Archaeology at Khazar University, presented a paper on "Some Aspects of the Study of Macrolithic Tools."

On April 14, conference participants visited the Aghaliqtepe settlement site dating to the Late Bronze–Early Iron Age, located in the village of Dagh Kesemen in the Aghstafa district, where they were familiarized with research being conducted by the Azerbaijani–German international archaeological expedition. It should be noted that Ulviyya Safarova is currently participating in the research as a member of that archaeological expedition.

## DEPARTAMENT MÜƏLLİMİNƏ DOSENT DİPLOMU VERİLİB

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 3 aprel 2026-cı il tarixli qərarı ilə elmi-pedaqoji fəaliyyətə görə, filologiya elmləri elm sahəsinin 5717.01-Türk xalqları ədəbiyyatı ixtisası üzrə dosent elmi adı verilib.

## DEPARTMENT INSTRUCTOR AWARDED DEGREE OF ASSOCIATE PROFESSOR

By the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, dated April 3, 2026, Ulvi Babasoy, instructor at the Department of Languages and Literatures of Khazar University, has been awarded the academic title of Associate Professor in the field of philological sciences, specialty 5717.01 - Literature of Turkic Peoples, for his scholarly and pedagogical activities.




*Ülvi Babasoy*

# RUMIN-AMERİKAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ






Ümid Məmmədov

# REPRESENTATIVE OF ROMANIAN-AMERICAN UNIVERSITY VISIT KHAZAR UNIVERSITY

Erasmus+ mübadilə proqramı çərçivəsində Rumıniyanın Rumın-Amerikan Universitetinin Beynəlxalq əlaqələr ofisinin nümayəndəsi Ümid Məmmədov aprelin 13- 17-də Xəzər Universitetində olub. Səfər iki ali təhsil müəssisəsi arasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması və gələcək tərəfdaşlıq imkanlarının genişləndirilməsi məqsədi daşıyıb.

Səfərin ilk günü qonağa "Xəzər"in Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları universitetin fəaliyyəti, beynəlxalq əlaqələri, akademik proqramları,



Within the framework of the Erasmus+ exchange program, Umid Mammadov, a representative of the International Relations Office of the Romanian-American University of Romania, visited Khazar University from April 13 to 17. The visit was aimed at developing international cooperation between the two higher education institutions, facilitating the exchange of experience, and expanding future partnership opportunities.

On the first day of the visit, staff members of International Relations Office provided the guest with detailed information on the university's operations, international relations, academic programs, student environment, and strategic development directions. During the meeting, the parties exchanged views on existing cooperation prospects, student and staff mobility programs, joint projects, and opportunities for participation in international programs.

Having familiarized himself closely with the day-to-day activities of International Relations Office, the guest expressed interest in the department's student and staff exchange processes, coordination with international partners, and the admission procedures for international students. In this context, mutual experience was shared and new cooperation mechanisms of potential benefit to both universities were discussed.



tələbə mühiti və strateji inkişaf istiqamətləri barədə ətraflı məlumat verib. Görüş zamanı tərəflər arasında mövcud əməkdaşlıq perspektivləri, tələbə və əməkdaş mobilliyi proqramları, birgə layihələr və beynəlxalq proqramlarda iştirak imkanları ətrafında fikir mübadiləsi aparılib.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin gündəlik fəaliyyəti ilə yaxından tanış olan qonaq şöbənin tələbə və əməkdaş mübadiləsi, beynəlxalq tərəfdaşlarla koordinasiya, xarici tələbələrin qəbulu prosesi ilə maraqlanib. Bu çərçivədə qarşılıqlı təcrübə paylaşılıb, hər iki universitet üçün faydalı ola biləcək yeni əməkdaşlıq mexanizmləri müzakirə edilib.

Aprelin 16-da universitetin Mərmər zalında Ümid Məmmədovun tələbə və professor-müəllim heyəti üçün məlumatlandırma sessiyası olub. Sessiya zamanı Rumıniyada ali təhsil sistemi, Rumın-Amerikan Universitetində təhsil imkanları, Erasmus+ proqramının təqdim etdiyi akademik və peşəkar inkişaf fürsətləri, tələbə mübadilə proqramları, müraciət prosedurları və beynəlxalq təhsil təcrübəsinin üstünlükləri barədə ətraflı məlumat verilib.

Mübadilə proqramının son günü qonaq üçün Azərbaycanın zəngin tarixi və mədəni irsini tanıtmaq məqsədilə ölkəmizin məşhur tarixi abidələrindən olan Atəşgah məbədinə ekskursiya təşkil edilib.

Səfər gələcək əməkdaşlıq planlarının müzakirəsi ilə yekunlaşıb.



On April 16, an information session was held by Umid Mammadov in the Marble Hall of the university. During the session, detailed information was provided on the higher education system in Romania, study opportunities at the Romanian-American University, academic and professional development prospects offered by the Erasmus+ program, student exchange programs, application procedures, and the advantages of international academic experience.

On the final day of the exchange program, an excursion to the Ateshgah Temple - one of Azerbaijan's renowned historical monuments - was organized for the guest with the aim of introducing him to the country's rich historical and cultural heritage.

The visit concluded with discussions on future cooperation plans.

# XƏZƏR UNİVERSİTETİNDƏ İSVEÇRƏLİ YAZIÇI REGİNA DÜRİG`İN VORKŞOPU KEÇİRİLİB







*Regina Düriq*

# WORKSHOP BY SWISS WRITER REGINA DÜRIG HELD AT KHAZAR UNIVERSITY

İsveçrə Konfederasiyasının Azərbaycandakı səfirliyi və Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin birgə təşkilatçılığı ilə aprelin 17-də tanınmış alman əsilli isveçrəli yazıçı Regina Dürig`in vorkşopu keçirilib.

Tədbirdə İsveçrə Konfederasiyasının Milli Proqramlar üzrə məsul əməkdaşı Zahir Əhmədov, fakültə dekanı Dr. Milana Abbasova, dekan müavini Günay Hacızadə, Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Qardaşxan Əzizxanlı, Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşları, həmçinin, filologiya ixtisası üzrə təhsil alan tələbələr iştirak ediblər.

A workshop by renowned Swiss writer of German origin Regina Dürig was held on April 17, organized jointly by the Embassy of the Swiss Confederation in Azerbaijan and the Faculty of Humanities, Education and Social Sciences of Khazar University.

The event was attended by Zahir Ahmadov, Program Officer for National Programs at the Swiss Confederation, Faculty Dean Dr. Milana Abbasova, Deputy Dean Gunay Hajizadeh, Dr. Gardashkhan Azizkhanli, lecturer at the Department of Languages and Literatures, staff members of the Library and Information Center, as well as students enrolled in the philology program.









*Zahir Əhmədov, Raziyə İsayeva, Regina Düriq, Milana Abbasova*

Yazıçı görüşdə Azərbaycan oxucusuna yenicə təqdim olunan "Qadınlar və daşlar" kitabı barədə ətraflı məlumat verib. Görüş çərçivəsində tələbələr kitabdan müxtəlif parçalar oxuyub, "daş", "olmaq istədiyim kitab" mövzuları üzrə yazı məşqləri edib, həmçinin, yaşadıqları müxtəlif məqamları zehinlərində canlandıraraq, həmin hissləri yazıya köçürüblər. Regina Dürig iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Tədbirdən sonra Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva yazıçı Regina Dürigi və səfirliyin əməkdaşını qəbul edib. Görüşdə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub və yazıçıya universitet adından təşəkkürnamə təqdim edilib.

İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tomas Ştəlinin dəvəti ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, "Xəzər"in rektoru Dr. Raziyə İsayeva və fakültə dekanı Dr. Milana Abbasova səfirin iqamətgahında təşkil olunmuş naharda iştirak ediblər.

At the meeting, the writer provided detailed information about her book "Women and Stones," which has just been introduced to Azerbaijani readers. During the session, students read various excerpts from the book, completed writing exercises on the themes of "stone" and "the book I would like to be," and also reflected on various moments from their own lives, transcribing those feelings into writing. Regina Dürig answered questions from the participants.

Following the event, Khazar University Rector Dr. Razia Isaeva received writer Regina Dürig and the embassy representative. Prospects for future cooperation were discussed at the meeting, and a letter of appreciation was presented to the writer on behalf of the university.

At the invitation of Thomas Stähli, Ambassador Extraordinary and Plenipotentiary of the Swiss Confederation to Azerbaijan, Khazar University Founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, Khazar University Rector Dr. Razia Isaeva, and Faculty Dean Dr. Milana Abbasova attended a luncheon held at the Ambassador's residence.

## KAPİTAL BANK NÜMAYƏNDƏSİNİN "XƏZƏR"DƏ SEMİNARI



Fatma Qurbanova

Xəzər Universitetində İqtisadiyyat və biznes yüksək təhsil və İqtisadiyyat və menecment fakültələrində təhsil alan tələbələr üçün aprelin 18-də keçirilən seminarda Kapital Bank-ın Agile (çevik idarəetmə) üzrə məsləhətçi və proses eksperti Fatma Qurbanova çıxış edib. Tədbirə MBA və bakalavr tələbələri qatılıb.

Seminar çevik idarəetmə yanaşması, rəqəmsal transformasiya, biznes proseslərinin texnologiya ilə yenilənməsi və liderlik bacarıqları kimi üç əsas istiqamətə fokuslanıb.

F. Qurbanova Agile metodologiyasının praktik tətbiqini, rəqəmsal transformasiyanın təsirini və effektiv liderliyi real keyslər əsasında izah edib. O bildirib ki, uğur yalnız texnologiya ilə deyil, çevik düşüncə və düzgün proses idarəçiliyi ilə bağlıdır.

İnteraktiv format tələbələrin analitik düşünmə və praktik bacarıqlarını inkişaf etdirir. Seminar universitet-sənaye əməkdaşlığının uğurlu nümunəsi kimi yüksək maraqla qarşılanıb.

## SEMINAR BY KAPITAL BANK REPRESENTATIVE AT KHAZAR



On April 18, Fatma Gurbanova, Agile Consultant and Process Expert at Kapital Bank, addressed a seminar held at Khazar University for students enrolled in the Graduate School of Economics and Business and the Faculty of Economics and Management. The event was attended by both MBA and undergraduate students.

The seminar focused on three key areas: the Agile management approach, digital transformation, renewal of business processes via technology, and leadership skills.

Gurbanova explained the practical application of Agile methodology, the impact of digital transformation, and effective leadership through real-world case studies. She noted that success is linked not only to technology, but also to agile thinking and sound process management.

The interactive format fostered the development of students' analytical thinking and practical skills. The seminar was received with great interest as a successful example of university-industry collaboration.



## ABERDEEN UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN ELMİ-PRAKTİK SEMİNARI

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Təhsil departamentinin təşkilatçılığı ilə doktorant Fərqanə Seyidlinin aprelin 20-də “Emosional intellekt və müəllim-uşaq münasibəti: niyə praktikada reallaşdırmaq çətindir?” mövzusunda elmi-praktik seminarı olub.

F.Seyidli “2019-2023-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında İngiltərənin Aberdeen Universitetində “Təhsil” ixtisası üzrə doktorantura təhsili alır. Onun təqdim etdiyi mövzu emosional intellektin sinif mühitində tətbiqi zamanı yaranan çətinliklərə həsr olunub, təlim zamanı müəllimlərin real situasiyalarda qarşılaşdıqları emosional və kognitiv yüklənmə təsvir edilib.

Seminarda uşaqların inkişaf səviyyəsi ilə müəllim gözləntiləri arasındakı uyğunsuzluq da müzakirə olunub. İştirakçılara emosional intellekt bacarıqlarının yalnız nəzəri bilik kimi deyil, həm də konkret pedaqoji kontekstdə tətbiqinin əhəmiyyəti izah edilib.

## SCIENTIFIC-PRACTICAL SEMINAR BY DOCTORAL STUDENT STUDYING AT UNIVERSITY OF ABERDEEN

A scientific-practical seminar by doctoral student Fargana Seyidli was held on April 20, organized by the Graduate School of Science, Art and Technology of and the Department of Education at Khazar University, on the topic "Emotional Intelligence and Teacher–Child Relationships: Why Is It Difficult to Implement in Practice?"

Seyidli is pursuing doctoral studies in "Education" at the University of Aberdeen, United Kingdom, under a trilateral agreement with the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University, within the "State Programme on Increasing the International Competitiveness of the Higher Education System of the Republic of Azerbaijan for 2019–2023." The topic she presented was dedicated to the challenges arising from the application of emotional intelligence in the classroom environment, describing the emotional and cognitive load teachers encounter in real situations during instruction.

The gap between children's developmental levels and teacher expectations was also discussed. Participants were informed of the importance of applying emotional intelligence skills not merely as theoretical knowledge, but also within specific pedagogical contexts.

## ERASMUS+ MÜBADİLƏ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

Hatay Mustafa Kemal Universitetinin Türk musiqi departamentinin nümayəndələri Hasan Görkem Erdem və Oğuzcan Kaliveri Erasmus+ mübadilə proqramı çərçivəsində aprelin 20-də Xəzər Universitetində olublar..

Görüşdə Xəzər Universitetini İncəsənət və musiqi departamentinin müəllimi Zülfiyyə Sadıqova və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Fidan Cəfərova təmsil ediblər.

Xəzər Universitetinin ümumi təqdimatından sonra onun akademik fəaliyyəti, beynəlxalq əməkdaşlıq istiqamətləri və Erasmus+ proqramı çərçivəsində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib.

Görüş çərçivəsində Türk və Azərbaycan musiqi mədəniyyətləri haqqında geniş fikir mübadiləsi aparılıb. Azərbaycan muğam sənətinin zənginliyi, dərin fəlsəfi və emosional ifadə imkanları, eləcə də Türk xalq musiqisi ilə ortaq köklər və fərqli inkişaf xətləri müzakirə olunub. Qeyd edilib ki, Azərbaycan musiqisi özünəməxsus melodik dili, qədim muğam ənənəsi və müasir bəstəkarlıq məktəbi ilə dünya musiqi mədəniyyətinə mühüm töhfələr verir, beynəlxalq səviyyədə getdikcə daha geniş tanınır. Eyni zamanda, bu zəngin irsin müxtəlif beynəlxalq platformalarda təqdim olunması mədəniyyətlərarası dialoqun güclənməsinə xidmət edir.



*Fidan Cəfərova, Zülfiyyə Sadıqova*

Görüş zamanı Azərbaycan bəstəkarlarının əsərləri və Türk türküləri dinlənilib, musiqinin tərəflər arasında körpü rolu oynadığı xüsusi vurğulanıb.

Sonda xatirə fotosu çəkilib və belə akademik-mədəni görüşlərin gələcəkdə də davam etdirilməsinin önəmi qeyd olunub.

## MEETING WITHIN FRAMEWORK OF ERASMUS+ EXCHANGE PROGRAMME

Representatives of the Turkish Music Department at Hatay Mustafa Kemal University, Hasan Görkem Erdem and Oğuzcan Kaliveri, visited Khazar University on April 20, within the framework of the Erasmus+ exchange programme. Khazar was represented at the meeting by Zulfiyya Sadigova, lecturer at the Department of Fine Arts and Music, and Fidan Jəfərova, coordinator of the International Relations Office.



*Hakan Görkem Erdem, Oğuzcan Kaliver*

Following a general presentation on Khazar, detailed information was provided on its academic activities, cooperation directions, and projects carried out within the Erasmus+ programme.

During the meeting, an extensive exchange of views took place on Turkish and Azerbaijani musical cultures. Discussions covered the richness of Azerbaijani mugham art, its profound philosophical and emotional expressive potential, as well as the shared roots and distinct lines of development between Azerbaijani and Turkish folk music. It was noted that Azerbaijani music, with its distinctive melodic language, ancient mugham tradition, and contemporary school of composition, makes a significant contribution to world musical culture and is gaining increasingly wider recognition at the international level. At the same time, the presentation of this rich heritage on various international platforms serves to strengthen intercultural dialogue.

During the meeting, works by Azerbaijani composers and Turkish folk songs were listened to, and particular emphasis was placed on the role of music as a bridge between the two sides. The meeting concluded with a commemorative photograph, and the importance of continuing such academic and cultural exchanges in the future was underlined.

# "XƏZƏR"İN DOKTORANTI TƏCRÜBƏ PROQRAMINI UĞURLA BAŞA VURUB

# KHAZAR DOCTORAL STUDENT SUCCESSFULLY COMPLETE INTERNSHIP PROGRAMME




*Rahil Dadaşlı*

Xəzər Universitetinin Beynəlxalq münasibətlər ixtisası üzrə doktorantı Rahil Dadaşlı fevralın 23-dən martın 26-dək Türkiyənin Osmaniye Korkut Ata Universitetində Erasmus+ təcrübə proqramını uğurla başa vurub.

Proqram Avropa İttifaqının Cənubi Qafqaza yönəlik xarici siyasətinə həsr olunub, tədqiqat, tədris və akademik əməkdaşlıq istiqamətlərini əhatə edib. Mobillik çərçivəsində Rahil Dadaşlının Qafqazın geosiyasi tarixi və Azərbaycandakı azlıqlar mövzusunda mühazirələri olub.

O, həmçinin, "İkinci Qarabağ müharibəsindən sonra Avropa İttifaqının Cənubi Qafqaz siyasəti" mövzusunda doktorluq tədqiqatını təqdim edib, müəllim heyəti və tədqiqatçılarla müzakirələr aparıb.

R.Dadaşlı "Qafqazda regional və qlobal aktorların rolu" mövzusunda universitet konfransında da çıxış edib.

Doktorant R. Dadaşlı universitetin idarəetmə sistemi, akkreditasiya prosedurları və keyfiyyət təminatı mexanizmləri ilə də tanış olub.

Rahil Dadashli, a doctoral student in International Relations at Khazar University, has successfully completed the Erasmus+ internship programme at Osmaniye Korkut Ata University in Türkiye from February 23 to March 26.

The programme was dedicated to the European Union's foreign policy toward the South Caucasus, encompassing research, teaching, and academic collaboration directions. Within the framework of the mobility programme, Rahil Dadashli delivered lectures on the geopolitical history of the Caucasus and minorities in Azerbaijan.

He also presented his doctoral research on the topic "The European Union's South Caucasus Policy after the Second Karabakh War" and held discussions with faculty members and researchers.

Dadashli also delivered a presentation at a university conference on the topic "The Role of Regional and Global Actors in the Caucasus."

Doctoral student Dadashli additionally familiarised himself with the university's management system, accreditation procedures, and quality assurance mechanisms.

## "XƏZƏR"DƏ "SİRLİ GEDİŞLƏR" KİTABININ MÜZAKİRƏSİ

Aprelin 21-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində hüquqşünas, şair, yazıçı Lətifə Oruc ilə görüş keçirilib. Görüş çərçivəsində müəllifin "Sirli gedişlər" kitabı müzakirə edilib.



*Aytac Misgərli*

Tədbiri Kitabxana-İnformasiya Mərkəzinin direktoru Aytac Misgərli açaraq, belə görüşlərin tələbələrin ədəbiyyata marağının artırılmasında

## DISCUSSION OF BOOK "MYSTERIOUS MOVES" AT KHAZAR

On April 21, a meeting was held with jurist, poet, and writer Latifa Oruj at the Library and Information Center of Khazar University. During the event, the author's book "Mysterious Moves" was discussed.

The event was opened by Aytac Misgarli, Director of the Library and Information Center,



*Lətifə Oruc*



*Nəhayət Əliyeva, Zəminə Əliyeva*

who noted that such meetings play an important role in fostering students' interest in literature. Akif Alizade, Senior Lecturer at the University, shared his thoughts on the author and the book.

The event was attended by Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures at Khazar and Assoc. Prof., Senior Lecturer and lawyer Akif Alizade, Alovsat Amirbayli, Director of Public Relations and Me-

mühüm rol oynadığını bildirib. Universitetin baş müəllimi Akif Əlizadə müəllif və kitab haqqında öz fikirlərini bölüşüb.



"Xəzər"in Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova və baş müəllim-hüquqşünas Akif Əlizadə, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, eləcə də kitabxana əməkdaşları, tələbələr tədbirdə iştirak ediblər.

Qonaqlar arasında şair-publisist Nəsibə İsrafilqızı, bəstəkar Aybəniz Gülər, yazarın ailə üzvləri Zəminə Əliyeva və Nəhayət Əliyeva da olub.

Maraqlı keçən tədbirdə müəllifə suallar ünvanlanıb və əsər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Avtobioqrafik roman olan "Sirli gedişlər" kitabı maddi imkanı məhdud bir ailədə böyüyən yeddi qızın həyat yolundan və onların ali təhsil alaraq, uğur qazanmalarından bəhs edir..



dia, as well as library staff and students.

Among the guests were poet and publicist Nasiba Israfilgizi, composer Aybaniz Güler, and the author's family members Zamina Aliyeva and Nahayat Aliyeva.

During the engaging event, questions were addressed to the author and a broad exchange of views was conducted around the work.

"Mysterious Moves," an autobiographical novel, tells the story of seven girls who grew up in a family of limited means and their journey to achieving success through higher education.

## “XƏZƏR”İN MAGİSTRANTLARI ELMİ KONFRANSDA

Aprelin 24-də Bakı Avrasiya Universiteti tərəfindən Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş “Azərbaycan ədəbiyyatşünaslığında türkoloji istiqamətlər” mövzusunda respublika elmi konfransı keçirilib.

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin Azərbaycan ədəbiyyatı ixtisası üzrə I kurs magistrantları Elvinə Kazımova və Əsmər Əliyeva konfransda iştirak ediblər.

## KHAZAR UNIVERSITY MASTER'S STUDENTS AT SCIENTIFIC CONFERENCE

On April 24, Baku Eurasia University hosted a republican scientific conference titled "Turkological Directions in Azerbaijani Literary Studies," dedicated to the 100th anniversary of the First Turkological Congress. First-year master's students Elvina Kazimova and Asmar Aliyeva, specializing in Azerbaijani Literature at the Graduate School of Science, Art and Technology of Khazar University, participated in the conference.




*Əsmər Əliyeva, Elvinə Kazımova, Çiçək Hüseynova, Pərvin Hacıyeva*

Elvinə Kazımova “Məhəmməd Əsəd Bəyin “Şərqdə neft və qan” və Orxan Pamukun “Bəyaz qala” romanlarında Şərq-Qərb paralelliyi”, Əsmər Əliyeva “Çingiz Aytmatovun nəsrində müdrik qoca arxetipi (“Gün var əsrə bərabər” və “Ağ gəmi ”əsərləri əsasında)” mövzularında məruzə ilə çıxış ediblər. “Xəzər”in magistrantlarının çıxışı təşkilatçılar tərəfindən yüksək qiymətləndirilib.

Hər iki məruzə magistrantların universitetdə dərs keçdikləri “Ümumtürk ədəbiyyatı” fənni çərçivəsində hazırlanıb.

Məruzələrin hazırlanmasına magistrantların elmi rəhbərləri fil.e.d., Prof. Bədirxan Əhmədov, fil.e.d. Hikmət Quliyev və fənn müəllimi fil.e.d. Mehman Həsənli rəhbərlik ediblər.

Elvina Kazimova delivered a paper on "The East-West Parallelism in Muhammad Asad Bey's 'Oil and Blood in the Orient' and Orhan Pamuk's 'The White Castle'," while Asmar Aliyeva presented on "The Archetype of the Wise Elder in Chingiz Aitmatov's Prose (Based on 'A Day Lasts More Than a Hundred Years' and 'The White Ship')." The presentations by Khazar University's master's students were highly commended by the organizers.

Both papers were prepared within the framework of the "Pan-Turkic Literature" course taught at the university. The preparation of the papers was supervised by the students' academic advisors - Doctor of Philological Sciences, Prof. Badirkhan Ahmadov, Doctor of Philological Sciences Hikmat Guliyev, and course instructor Doctor of Philological Sciences Mehman Hasanli.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONFRANSDA

Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun koordinatoru Dr. Fəridə Seyidova və Dillər və ədəbiyyatlar departamentinin müəllimi dos. Xatirə Yusifova aprelin 2-4-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən beynəlxalq elmi konfransda iştirak ediblər.

Prof. Törə Mirzayevə həsr olunmuş Beynəlxalq Türk Mədəniyyəti simpoziumu geniş tərkibli təşkilatçı qurumların əməkdaşlığı ilə ərsəyə gəlib. Simpozium Özbəkistan Respublikası Elmlər Akademiyası, Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu, Əlişir Nəvai adına Dövlət Ədəbiyyat Muzeyi, Əbu Reyhan Biruni adına Şərqşünaslıq İnstitutu, Əlişir Nəvai adına Daşkənd Dövlət Dil və Ədəbiyyat Universiteti, Özbəkistan Yazıçılar Birliyi, Türk Kültürü Araşdırmaları İnstitutu, Türkiyənin Ege Universiteti, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu, Ankara Hacı Bayram Vəli Universiteti, Cənubi Koreyanın Dongduk Universitetinin Avrasiya Araşdırmaları İnstitutu, Türk Arxeoloji Mədəni İrs İnstitutu və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən birgə təşkil olunub.




*Xatirə Yusifova, Məleykə Məmmədova, Fəridə Seyidova*

Fəridə Seyidova simpozium çərçivəsində "Azərbaycan əsilli Xəlvətiyyə sufi məktəbinin özbək təmsilçisi: Yaqub xan Kaşğari", Xatirə Yusifova "Azərbaycanda XX əsrdə Osmanlı ədəbiyyatı sahəsində elmi tədqiqatların əsas istiqamətləri" mövzularında elmi məruzə ilə çıxış ediblər. Simpozium Türk dünyasının zəngin mədəni irsinin araşdırılması, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm elmi platforma kimi böyük əhəmiyyət kəsb edir.

## KHAZAR UNIVERSITY STAFF AT INTERNATIONAL CONFERENCE

Dr. Farida Seyidova, coordinator of Khazar University's Mawlana Institute of Literary and Philosophical Studies, and Assoc. Prof. Khatira Yusifova, lecturer at the Department of Languages and Literatures, participated in an international scientific conference held on April 2–4, in Tashkent, the capital of Uzbekistan.

The International Turkic Culture Symposium, dedicated to Prof. Tore Mirzayeva, was organized through the collaboration of a broad range of institutional co-organizers. The symposium was jointly organized by the Academy of Sciences of the Republic of Uzbekistan, the Institute of Uzbek Language, Literature and Folklore, the State Literary Museum named after Alisher Navoi, the Institute of Oriental Studies named after Abu Rayhan Biruni, the Tashkent State University of Uzbek Language and Literature named after Alisher Navoi, the Writers' Union of Uzbekistan, the Institute for Turkish Cultural Research, Ege University of Türkiye, the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences, Ankara Hacı Bayram Veli University, the Eurasian Studies Institute of Dongduk University of South Korea, the Turkish Archaeological Cultural Heritage Institute, and the International Organization of Turkic Culture (TÜRKSOY).

Within the framework of the symposium, Farida Seyidova delivered a paper titled "An Uzbek Representative of the Azerbaijani-Origin Khalvatiyya Sufi School: Yaqub Khan Kashghari," while Khatira Yusifova presented on "The Main Directions of Academic Research in the Field of Ottoman Literature in Azerbaijan in the 20th Century." The symposium holds significant value as an important scientific platform for the study, preservation, and transmission of the rich cultural heritage of the Turkic world to future generations.

# XƏZƏR UNİVERSİTETİNDƏ AZƏRBAYCAN X BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

# AZERBAIJAN X INTERNATIONAL PSYCHOLOGY CONFERENCE AT KHAZAR UNIVERSITY

Aprelin 24-25-də Xəzər Universitetində Azərbaycan X Beynəlxalq Psixologiya Konfransı olub. Universitetin Psixologiya departamentinin təşkilatçılığı və psixoloq Mələk Kərimovanın moderatorluğu ilə keçirilən tədbir psixologiya sahəsində yerli və xarici alimləri, tədqiqatçıları və mütəxəssisləri bir araya gətirib. Konfransın məqsədi beynəlxalq elmi əməkdaşlığı gücləndirmək, innovativ yanaşmaları təşviq etmək və psixologiya sahəsində bilik mübadiləsini genişləndirmək idi. Tədbir, eyni zamanda, Azərbaycanda psixologiya elminin və praktikasının inkişafına töhfə verməyə yönəlmişdi.

İki gün davam edən konfrans çərçivəsində müxtəlif



*Hamlet İsaxanlı*





*Sultanberk Halmatov*

On April 24–25, the Azerbaijan X International Psychology Conference was held at Khazar. Organized by the university's Department of Psychology and moderated by physchologist Melek Karimova, the event brought together local and international scientists, researchers, and specialists in the field of psychology. The conference aimed to strengthen international scientific cooperation, promote innovative approaches, and expand the exchange of knowledge on psychology. The event was oriented toward contributing to the development of psychological science and practice in Azerbaijan.

Over the course of the two-day conference, sci-



*Raziyə İsayeva*

ölkələrdən dəvət olunmuş ekspertlərin iştirakı ilə elmi məruzələr, panel müzakirələr, həmçinin, praktiki workshop və təlimlər təşkil olunub. Tədbirin ilk günündə iştirakçılar psixologiyanın aktual problemləri, müasir yanaşmalar və yeni tədqiqat istiqamətləri ətrafında fikir mübadiləsi aparıblar.



*Selçuk Aslan*

Açılış mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, tədbirin əhəmiyyətindən danışıb. Universitetin rektoru Dr. Raziyə İsayeva açılış nitqi ilə iştirakçıları salamlayıb. Konfransın ilk günü ərzində Sultanberk Halmatov "Neyropedaqogika", Nevin Dölek "Kriz vəziyyətlərində davamlılıq prin-



*Elxan Yusifov*

sipi", Selçuk Aslan "Şəfqət yönümlü terapiya", eləcə də Elxan Yusifov "Neyroinkişafi xəstəliklərin tədqiqatı və diaqnostikasında müasir istiqamətlər" mövzularında məruzələrlə çıxış ediblər. Günün ikinci

(*Ardı səh.60-da*)



*Mələk Kərimova*

entific presentations, panel discussions, as well as practical workshops and training sessions were organized with the participation of invited experts from various countries. On the first day of the event, participants exchanged views on current issues in psychology, contemporary approaches, and new research directions.

At the opening ceremony, the founder of Khazar and Chairman of the Board of Directors and Trustees, Prof.



*Nevin Dölek*

Acad. Hamlet Isakhanli, delivered a speech stressing the significance of the event. The rector Dr. Razia Isaeva, welcomed participants in an opening address. During the first day Sultanberk Halmatov delivered a presentation on "Neuropedagogy," Nevin Dölek on "The Principle of Resilience in Crisis Situations," Selçuk Aslan on "Compassion-Focused Therapy," and

(*To be continued page 60*)




*Kültəğin Ögel*



yarısında Kültəğin Ögel və Metin Başoğlu tərəfindən asılılıq və travma yönümlü terapiya metodlarına dair təqdimatlar keçirilib. Gün Tahir Özakkaşın emosiya əsaslı terapiya mövzusunda onlayn çıxışı ilə yekunlaşıb.



Konfransın ikinci günü çərçivəsində Sultanberk Halmatovun “Sənət terapiyası atelyesi”, Nevin Dölekin “Krizlə mübarizə üçün dəstək fəaliyyətləri”, Kültəğin Ögelin “Asılılıqla işləmək: klinik reallıqlar və psixoterapiya strategiyalarının praktik tətbiqi”, eləcə də Selçuk Aslanın “Şəfqət yönümlü terapiyanın tətbiqləri” mövzularında sessiyaları keçirilib. Günün sonunda konfransın yekunu olub və iştirakçılara sertifikatlar təqdim edilib.

Konfrans ərzində müxtəlif istiqamətlər üzrə mütəxəssislər arasında fənlərarası əməkdaşlığın genişlənməsinə imkan yaranıb. Tədbir iştirakçıları konfransın yeni ideyaların formalaşmasına və beynəlxalq əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verdiyini bildiriblər.

Elkhan Yusifov on "Contemporary Directions in the Research and Diagnosis of Neurodevelopmental Disorders." In the afternoon, presentations on addiction and trauma-focused therapy methods were delivered by Kültəğin Ögel and Metin Başoğlu. The day ended with an online presentation by Tahir Özakkaş on emotion-based therapy.



On the second day of the conference, sessions were held on the following topics: "Art Therapy Atelier" by Sultanberk Halmatov, "Support Activities for Coping with Crisis" by Nevin Dölek, "Working with Addiction: Clinical Realities and the Practical Application of Psychotherapy Strategies" by Kültəğin Ögel, and "Applications of Compassion-Focused Therapy" by Selçuk Aslan. The day concluded with the closing ceremony of the conference, during which certificates were presented to participants.

In the conference, the expansion of interdisciplinary collaboration among specialists was facilitated. Participants noted that the conference made a significant contribution to the formation of new ideas and the strengthening of international ties.

# XƏZƏR UNİVERSİTETİNİN MAGİSTRANTLARI KİTAB TƏQDİMATINDA

# KHAZAR UNIVERSITY GRADUATE STUDENTS ATTEND BOOK LAUNCH




*Əsmər Əliyeva, Siracəddin Səyyid, Elvinə Kazımova*

Aprelin 25- də Azərbaycan Yazıçılar Birliyində Özbəkistanın Xalq şairi, Özbəkistan Yazıçılar Birliyinin sədri Siracəddin Səyyidin "Vaxt heykəli" kitabının təqdimat mərasimi keçirilib. Tədbir iki əsas hissədən ibarət olub: rəsmi çıxışlar və kitabın təqdimatı.

Rəsmi hissədə müəllifin yaradıcılığı, Özbəkistan ədəbi mühitində tutduğu mövqe, Azərbaycanla olan mədəni əlaqələr barədə danışılıb. Təqdimat mərhələsində şairin "Vaxt heykəli" kitabının məzmunu, bədii - estetik dəyərləri haqqında fikirlər söylənib, müzakirə aparılıb. Xəzər Universitetinin Təbiət elmləri sənət və texnologiya yüksək təhsil fakültəsinin Azərbaycan ədəbiyyatı ixtisası üzrə I kurs magistrantları Elvinə Kazımova və Əsmər Əliyeva (elmi rəhbər "Ümumtürk ədəbiyyatı" fənnini tədris edən fil.e.d. Mehman Həsənli) tədbirdə iştirak edib, aparılan müzakirələri izləyiblər.

On April 25, a presentation ceremony for the book "Statue of Time" by Sirojiddin Sayyid - People's Poet of Uzbekistan and Chairman of the Writers' Union of Uzbekistan - was held at the Azerbaijan Writers' Union. The event consisted of two main parts: official speeches and the book presentation.

During the official part, speakers addressed the author's creative work, his standing in Uzbekistan's literary landscape, and cultural ties with Azerbaijan. At the presentation stage, the content of the poet's book "Statue of Time," along with its artistic and aesthetic values, were discussed.

First-year graduate students Elvina Kazimova and Asmar Aliyeva, enrolled in the Azerbaijani Literature specialization at the Graduate School of Science, Art and Technology of Khazar University (under the academic supervision of Doctor of Philological Sciences Mehman Hasanli, who teaches the course "Pan-Turkic Literature"), attended the event and followed the discussions.

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ZAVODDA EKSKURSİYADA

## KHAZAR STUDENTS ON FACTORY EXCURSION

Xəzər Universiteti Kimya və kimya mühəndisliyi departamentinin Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələri üçün aprelin 27-də "Coca-Cola Azərbaycan" zavoduna ekskursiya təşkil edilib. Tələbələr zavodun əsas əməliyyat sahələri, o cümlədən keyfiyyətə nəzarət və qablaşdırma şöbələri ilə tanış olublar.

On April 27, an excursion to the "Coca-Cola Azerbaijan" plant was organized for students majoring in Chemical Engineering of the Department of Chemistry and Chemical Engineering. During the tour, the students became acquainted with the plant's main operational areas, including the quality control and packaging departments.



Ekskursiya zamanı "Coca-Cola Azərbaycan" şirkətinin mütəxəssisləri içki istehsalında istifadə olunan texnologiyalar və avadanlıqlar haqqında ətraflı məlumat veriblər. Onlar, həmçinin, zavodun gündəlik fəaliyyəti və iş prosesindən də danışıblar.

Mütəxəssislər tələbələrin suallarını cavablandırıb və təhsilləri zamanı əldə etdikləri nəzəri biliklərin real sənaye və istehsal mühitində necə tətbiq oluna biləcəyini müzakirə ediblər.

Throughout the visit, specialists from "Coca-Cola Azerbaijan" provided detailed explanations about the technologies and equipment used in beverage production. They also shared practical insights into the plant's daily operations and workflow. The experts answered students' questions and discussed how the theoretical knowledge gained during their studies can be applied in real industrial and production environments.

## DOKTORANTIN ELMİ-PRAKTİK SEMİNARI

## DOCTORAL STUDENT'S SCIENTIFIC-PRACTICAL SEMINAR

Xəzər Universiteti Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi və Təhsil departamentinin təşkilatçılığı ilə aprelin 27-də "Təhsildə tədqiqat metodları: məlumat toplama üsulları" mövzusunda Fatimə Vəliyevanın elmi-praktik seminarı keçirilib.

O, "2022–2028-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Xəzər Universiteti ilə bağlanmış üçtərəfli

Organized by the Graduate School of Science, Art and Technology and the Education Department of Khazar, a scientific-practical seminar by Fatima Valiyeva on the topic "Research Methods in Education: Data Collection Techniques" was held on April 27.

She is pursuing doctoral studies in "Education" at the University of Southampton under a trilateral agreement concluded between the Ministry of Science and Education of the Republic of Azerbaijan and Khazar University within the framework of the "State

müqavilə əsasında Southampton Universitetində "Təhsil" ixtisası üzrə doktorantura təhsili alır.

Seminarın əsas məqsədi tələbələrə tədqiqat prosesinin mərhələləri, məlumat toplama metodları və onların praktik tətbiqi barədə nəzəri və praktiki biliklərin çatdırılması olub.

Seminarda tədqiqat anlayışı, ədəbiyyat icmalı, tədqiqat məqsədinin və suallarının formalaşdırılması, eləcə də məlumatların toplanması mərhələləri ətraflı şəkildə izah edilib. Xüsusilə, sorğuların hazırlanması, müsahibə növləri (yarı-strukturlaşdırılmış və qrup müsahibələri), həmçinin, fokus qruplar haqqında geniş məlumat verilib.

Seminarın praktik hissəsində iştirakçılar tədqiqat suallarının hazırlanması və müsahibə suallarının qurulması üzərində çalışıblar.

Programme on Enhancing the International Competitiveness of the Higher Education System of the Republic of Azerbaijan for 2022–2028."

The main objective of the seminar was to provide students with theoretical and practical knowledge on the stages of the research process, data collection methods and their practical application.

The seminar covered in detail the concept of research, literature review, formulation of research objectives and questions, as well as the stages of data collection. Particular attention was given to questionnaire design, types of interviews (semi-structured and group interviews), as well as focus groups.

During the practical part of the seminar, participants worked on developing research questions and structuring interview questions.

## "XƏZƏR"İN İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ PROFESSORUNUN MƏQALƏSİ BEYNƏLXALQ JURNALDA DƏRC EDİLİB

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin professoru Samanta Kerlin həmmüəllifi olduğu "Dəniz tematikasına əsaslanan EFL təhsilində kommunikativ bacarıqların inkişafı üçün robot dəstəkli dil öyrənməsi (RALL): İndoneziya, Qərbi Sulavesi orta məktəb şagirdləri üzrə tədqiqat" adlı məqalə Cənub-Şərqi Filippin Tədqiqat və İnkişaf Jurnalında (cild 31, № 1, ) dərc olunub.

Tədqiqat ingilis dilini xarici dil kimi öyrənənlər (EFL) arasında kommunikativ kompetansiyanın gücləndirilməsində Robot Dəstəkli Dil Öyrənməsinin (RALL) effektivliyini araşdırır. İndoneziyanın sahil bölgələrindəki orta məktəb şagirdləri ilə aparılan bu tədqiqatda mədəni uyğunluq və kontekstual əlaqəni təmin etmək məqsədilə dəniz tematikasına əsaslanan tədris materiallarından istifadə edilib.

Məqaləni aşağıdakı linkdən oxumaq mümkündür:




## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN INTERNATIONAL JOURNAL

Professor Samantha Curle of the English Language and Literature Department at Khazar University has co-authored an article titled "Robot-Assisted Language Learning (RALL) for Communication Skills Development in Maritime-Themed EFL Education: A Study of Secondary School Students in West Sulawesi, Indonesia", published in the Southeastern Philippines Journal of Research and Development (Vol. 31, No. 1, ).

The study examines the effectiveness of Robot-Assisted Language Learning (RALL) in enhancing communicative competence among learners of English as a Foreign Language (EFL). Conducted with secondary school students in coastal regions of Indonesia, the research incorporates maritime-themed instructional materials to ensure cultural relevance and contextual alignment.

This paper can be read at:

*https://journal.usep.edu.ph/index.php/Southeastern_Philippines_Journal/article/w/1510?fbclid=IwVERDUAQ5SbxleHRuA2FlbQIxMABzcnRjBmFwcF9pZAwzNTA2ODU1MzE3MjgAAR5W3KcSJABt5nCQzxmACY1VyxSs5HTZDNXqNbao8ZpRnqANndIF2CIdCc1UBQ_aem_M1hLMZTMXmcnJXcrZwpu1g*

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ SEMİNAR

## NEXT SEMINAR WITHIN FRAMEWORK OF DIRNA PROJECT

Xəzər Universitetində DIRNA layihəsinin 4-cü iş paketinin (WP4.5) “Tədqiqat fəaliyyətləri üzrə müntəzəm” workshoplar çərçivəsində aprelin 27- də növbəti seminar olub. Xəzər Universitetinin Kitabxana - İnformasiya Mərkəzinin direktoru Aytac Misgərlinin moderatorluğu ilə keçirilən seminarı finlandiyalı tərəfdaş, Jyväskylä Universitetinin postdoktoral tədqiqatçısı Mehtälä Saana təqdim edib.

Layihə tərəfdaşları beynəlxalq əməkdaşlığın praktiki aspektləri ətrafında fikir mübadiləsi aparıblar. Mövzu “Beynəlxalq əməkdaşlıq: fənlərarası əməkdaşlıq, koordinasiya və təşkilatlararası kontekstlərdə etimad” olub.

Seminar zamanı beynəlxalq, təşkilatlararası və fənlərarası əməkdaşlıq anlayışları izah edilib, layihələrin sosial-texniki sistem kimi formalaşması və tərəfdaşların bu prosesdə rolu vurğulanıb. Həmçinin, müxtəlif ölkələrin təhsil sistemləri və akademik mühitinin layihələrə təsiri müzakirə olunub.

Seminar çərçivəsində formal razılaşmalarla gündəlik iş təcrübəsi arasındakı fərqlər, qeyri-formal əməkdaşlığın əhəmiyyəti, eləcə də effektiv kommunikasiya və etibarlı tərəfdaşlıq məsələləri diqqətə çatdırılıb.

Sonda iştirakçıların gələcək workshop mövzuları ilə bağlı rəy və təkliflərinin toplanması məqsədilə sorğu təqdim edilib.

A seminar was held on April 27, within the framework of the regular workshops under Work Package 4 (WP4.5) of the DIRNA project at Khazar University. The seminar, moderated by Aytaj Misgarli, Director of the Library and Information Center of Khazar University, was presented by Mehtälä Saana, a postdoctoral researcher at the University of Jyväskylä and a Finnish project partner.

Project partners exchanged views on the practical aspects of international collaboration. The topic was "International Collaboration: Interdisciplinary Cooperation, Coordination, and Trust in Inter-Organizational Contexts." During the seminar, the concepts of international, inter-organizational, and interdisciplinary collaboration were explained, with emphasis on the formation of projects as socio-technical systems and the role of partners in this process. The influence of different countries' education systems and academic environments on projects was also discussed.

Within the framework of the seminar, attention was drawn to the differences between formal agreements and day-to-day work practices, the significance of informal collaboration, as well as issues of effective communication and trustworthy partnership.

At the conclusion of the seminar, a survey was presented to gather participants' feedback and suggestions regarding future workshop topics.

## SUMQAYIT “DÜNYA” MƏKTƏBİNİN ŞAGİRDLƏRİ XƏZƏR UNIVERSİTETİNDƏ

## STUDENTS OF SUMGAIT "DUNYA" SCHOOL AT KHAZAR UNIVERSITY

Xəzər Universitetinin Həyat elmləri departamentinin təşkilatçılığı ilə Sumqayıt “Dünya” məktəbinin Azərbaycan bölməsində təhsil alan 3–4-cü sinif şagirdləri üçün aprelin 30-da “Xəzər”də maarifləndirici ekskursiya təşkil edilib.

Ekskursiya çərçivəsində şagirdlər Həyat elmləri departamenti, eləcə də Kimya və kimya mühəndisliyi departamentinin laboratoriyaları ilə tanış olublar. Departament rəhbəri Dr. Cəmalə Eldarova şagirdlərlə görüşərək, laboratoriya şəraiti və təhlükəsizlik qaydaları haqqında məlumat verib.

Həyat elmləri departamentinin müəllimi, Dos. Gülbəniz Qasımova  şagirdlərə heyvanlar aləmi barədə danışıb, onların qorunmasının və canlılara qarşı məsuliyyətli münasibətin əhəmiyyətini vurğulayıb. Praktik

Organized by the Department of Life Sciences at Khazar University, an educational excursion was held on April 30, at Khazar University for 3rd and 4th grade students enrolled in the Azerbaijani division of Sumgait "Dunya" School.

During the excursion, students were introduced to the laboratories of the Department of Life Sciences as well as the Department of Chemistry and Chemical Engineering. Department Head Dr. Jamala Eldarova met with the students and provided information on laboratory conditions and safety regulations.

Associate Professor Gulbaniz Gasimova, a lecturer at the Department of Life Sciences, spoke to the students about the animal kingdom, emphasizing the importance of wildlife conservation and responsible attitudes toward living beings. In the practical segment,



students observed tadpoles under a microscope and were also introduced to a non-venomous water snake.

The excursion continued at the Department of Chemistry and Chemical Engineering. Various chemical reactions demonstrated by department lecturer Gullu Aliyeva — including gas generation and a "volcanic eruption" effect - generated particular interest among the students.

The students also viewed creative works prepared by students of the Department of Architecture and Design.

The excursion holds significant importance in terms of fostering students' interest in science and shaping their future academic orientations.



hissədə şagirdlər mikroskop altında qurbağa sürfəsini (çömçəquyruğu) müşahidə edib, həmçinin, zəhərsiz su ilanı ilə tanış olublar.

Ekskursiya Kimya və kimya mühəndisliyi departamentində davam edib. Departamentin müəllimi Güllü Əliyevanın nümayiş etdirdiyi müxtəlif kimyəvi reaksiyalar, qaz əmələ gəlməsi və "vulkan püskürməsi" effekti şagirdlər üçün xüsusi maraq doğurub.

Şagirdlər, həmçinin, Memarlıq və dizayn departamentinin tələbələrinin hazırladıqları yaradıcılıq nümunələri ilə tanış olublar. Ekskursiya şagirdlərdə elmə marağın artırılması və onların gələcək təhsil istiqamətlərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.





**Xankişi Məmmədov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

# MÜBARİZ CƏFƏRLİNİN HEKAYƏLƏRİNDƏ QEYRİ-SƏLİS MƏNTİQ VƏ İDRAKIN ÇOXQATLI MODELİ

İnsanın daxili dünyasının və təbiətinin mürəkkəb strukturlarının reallığa daha yaxın və dəqiq şəkildə tədqiqi ədəbiyyatın ən çətin və nəzəri baxımdan mürəkkəb sahələrindən biri hesab olunur. Bu istiqamət yalnız psixoloji realizmin bədii təqdimini deyil, həm də sosial-mədəni kontekstin sistemli və dolğun şəkildə əks etdirilməsini tələb edir, çünki insan təbiəti ziddiyyətlər, tərəddüdlər və izahı çətin psixoloji vəziyyətlərlə zəngin, daim dəyişən bir strukturdur. Belə mürəkkəbliyin bədii mətndə ifadəsi üçün yazıçı yüksək yaradıcılıq potensialına və güclü müşahidə qabiliyyətinə malik olmaqla yanaşı, həm də analitik və tənqidi düşüncə bacarığına sahib olmalıdır. Bu baxımdan çağdaş Azərbaycan ədəbiyyatında fərqli üslub və estetik-intellektual yanaşmalara malik olan, lakin bədii düşüncənin dərinləşdirilməsi baxımından ortaq fəlsəfi xətt üzərində birləşən yazıçı və şairlər kifayət qədərdir. Onların yaradıcılığında bədii mətn təkcə təsvir vasitəsi kimi deyil, həm də düşüncə və idrak proseslərinin ifadə forması kimi çıxış edir. Xüsusilə təbiət, heyvanlar və digər sadə varlıqların (kəpənəklər, milçəklər, arılar və s.) obrazlaşdırılması vasitəsilə insanın daxili aləminin çoxqatlı ifadəsi müasir ədəbi düşüncədə xüsusi estetik və fəlsəfi ustalıq tələb edir. Bu kontekstdə Mübariz Cəfərli Azərbaycan nəsrində insan psixologiyasının mürəkkəb strukturunu bədii-estetik və fəlsəfi-intellektual müstəvidə modelləşdirən yazıçılardan biri kimi fərqlənir. Onun yaradıcılığı ənənəvi təsvir formalarının sərhədlərini aşaraq hadisələrin sadə təqdimindən daha çox, onların arxasında dayanan qeyri-sabit, ziddiyyətli və çoxsəviyyəli idrak proseslərini bədii düşüncənin mərkəzinə gətirir və psixoloji realizmin interpretativ imkanlarını genişləndirir. Bu xüsusiyyət M. Cəfərlinin nəsrini yalnız bədii-estetik mətn kimi deyil, eyni zamanda dərin fəlsəfi və intellektual məzmun daşıyan yaradıcılıq nümunəsi kimi təqdim edir. Onun mətnlərində bədii təsvir yalnız bədii funksiya ilə məhdudlaşmır, həm də idrak və emosional təcrübənin mexanizmlərini modelləşdirən konseptual sistem kimi çıxış edir. Bu baxımdan M.Cəfərlinin hekayələri qeyri-səlis məntiq kontekstində mürəkkəb idrak modelini nümayiş etdirən nümunələr kimi dəyərləndirilə bilər. Burada bədii mətn sadəcə təsvir vasitəsi deyil, eyni zamanda mürəkkəb idrak mexanizmlərinin işlək modelinə çevrilir. Müəllif ən adi görünən detalları fəlsəfi ümumiləşdirmə səviyyəsinə yüksəldərək, insan təcrübəsinin qeyri-müəyyənliyini estetik prinsip kimi təqdim edir. Nəticə etibarilə Cəfərlinin hekayələri yalnız ədəbi nümunə deyil, insanın daxili aləmini anlamağa yönəlmiş konseptual düşüncə platforması kimi çıxış edir.

Azərbaycan alimi Lütfi Zadə tərəfindən əsası qoyulan qeyri-səlis məntiq ənənəvi məntiqdən fərqli olaraq yalnız "bəli" və "xeyr" kimi qəti qərarlarla məhdudlaşmır. Klassik məntiq ikili qarşıdurma üzərində qurulduğu halda, qeyri-səlis məntiq həqiqət dəyərlərinin 0 ilə 1 arasında dəyişən istənilən qiymətlərlə ifadə olunmasına imkan verir. Qeyri-səlis məntiq "qismən doğru" və "təxminən uyğun" kimi aralıq vəziyyətləri də nəzərə alaraq düşüncə proseslərini daha çevik və çoxqatlı şəkildə təqdim edir. Bu yanaşma riyazi çərçivəni aşaraq insan psixologiyasının ziddiyyətli və çoxqatlı təbiətini izah etmək üçün daha adekvat nəzəri çərçivə yaradır. İnsan təcrübəsi çox zaman hiss və düşüncələrin paralel və ziddiyyətli mövcudluğu ilə xarakterizə olunur ki, bu da qərarların sadələşdirilmiş formada ifadəsini çətinləşdirir. Qeyri-səlis məntiq bu mürəkkəbliyi izah edərək, klassik məntiqin yalnız xüsusi hal kimi işlədiyini və insanın daxili dünyasının yalnız birbaşa səbəb-nəticə əlaqələri ilə izahının yetərli olmadığını göstərir. Bu baxımdan qeyri-səlis məntiq bədii mətnin interpretasiyasında insanın daxili ziddiyyətlərini və qeyri-müəyyənliklərini daha adekvat şəkildə izah etməyə imkan verən nəzəri çərçivə kimi çıxış edir.

Mübariz Cəfərlinin "Kəpənəklərə", "Milçəklərə" və "Kərtənkələlərə" hekayələrində obrazların daxili dünyası birbaşa və sadə şəkildə deyil, qeyri-səlis məntiq elementləri vasitəsilə təqdim edilir. Yazıçı obrazların düşüncə və emosiyalarını sabit emosional xətt üzərində deyil, ziddiyyətli və dəyişkən situasiyalar fonunda qurur. Belə yanaşma oxucuya yalnız xarici hadisələri izləmək imkanı vermir, eyni zamanda obrazların daxili mübarizələrini və psixoloji mürəkkəbliyini dərk etməyə şərait yaradır. Hekayələrdə baş verən hadisələr qəti və aydın səbəb-nəticə əlaqələri ilə izah edilmir. Bunun əvəzinə oxucu müxtəlif duyğu və düşüncə axınları arasında hərəkət edir və bu, insan psixologiyasının çoxşaxəli və qeyri-müəyyən təbiətini nümayiş etdirir. Nəticədə bu yanaşma hekayələrin emosional və psixoloji dərinliyini artırır və oxucuya daha kompleks, çoxqatlı bir dünyada baş verən daxili prosesləri izləmək imkanı yaradır.

Mübariz Cəfərlinin hekayələrində təbiət təsvirləri və simvolizmdən geniş şəkildə istifadə olunur. Məsələn, "kəpənəklər" azadlığı, kövrəkliyi və həyatın qısa, lakin intensiv xarakterini simvollaşdırır. Bu metaforik obraz qeyri-səlis məntiq çərçivəsində obrazların daxili vəziyyətlərinin çoxqatlı şəkildə modelləşdirilməsinə xidmət edir. Kəpənəklər onların ziddiyyətli hisslərini, keçmişin izlərini və psixoloji vəziyyətlərini əks etdirir. Bu simvollar oxucuya xarici hadisələrin arxasında gizlənən daxili məqamları daha dərindən anlamağa kömək edir. Oxucu bu hekayələrdə yalnız hadisələri izləməklə kifayətlənmir, eyni zamanda onların arxasında dayanan daxili prosesləri, tərəddüdləri və ziddiyyətləri dərk etməyə yönəlir. Qeyri-səlis məntiq oxucunu xarici süjetdən daha çox daxili psixoloji qatlara yönəldir. Hadisələr müəyyən ardıcıllıqla inkişaf etsə də, insan psixologiyasının mürəkkəbliyi bu mətnləri sadə məntiq çərçivəsinə sığışdırmır. Bu isə həyatın özündə olduğu kimi qeyri-müəyyənliyin və çətinliklərin insan təcrübəsində necə dərin fəlsəfi və estetik dəyər daşıdığını göstərir.

İndi nəzəri kontekst fonunda Mübariz Cəfərlinin "Kəpənəklərə" hekayəsində qeyri-səlis məntiqin  təzahürlərinə diqqət yetirək: "Günlərin birində – beş-altı ilin söhbətidir – günorta namazına az qalmış qəfil məsciddə ürəyim sıxıldı, gördüm havası çatmır, səcdəyə gələnləri orda qoyub sakitcə qalxdım..." Bu sitat hekayə qəhrəmanının daxili dünyasının mürəkkəbliyini, emosional tərəddüdlərini və qeyri-səlis məntiqin təzahürlərini aydın şəkildə ortaya qoyur. Burada fiziki narahatlıq – havasının çatmaması –ilə emosional sıxıntı – ürəyin sıxılması arasında qəti və birbaşa səbəb-nəticə əlaqəsi müşahidə olunmur. Qəhrəman qeyri-iradi hərəkətlər və daxili tərəddüdlər tərəfindən yönləndirilir və bu davranış klassik məntiq çərçivəsində yalnız "bəli" və ya "xeyr" kimi izah edilə bilməz. Sintaktik mürəkkəblik və mətndə paralel şəkildə inkişaf edən düşüncələr qəhrəmanın daxili qarışıqlığını qeyri-xətti və ritmik formada əks etdirir. Bu yanaşma oxucunu yalnız xarici hadisələrə deyil, həm də qəhrəmanın daxili dünyasına fokuslanmağa dəvət edir.

Hekayədəki təbiət təsvirləri və metaforik elementlər, qəhrəmanın daxili aləmini və qeyri-səlis məntiq kontekstində inkişaf edən çoxqatlı psixoloji strukturunu açıq şəkildə göstərir. Qəhrəman günəşin bədəninə xoş bir hərarət gətirdiyini hiss edir, amma bu hərarət onun bədənini nə yandırır, nə də tərlədir – bu, ziddiyyətli bir vəziyyət kimi təqdim olunur. "Var gücümlə: Ay Allah, mən adam olmaqdan yorulmuşam, məni kəpənəyə döndər!" - çığırmaq istədim, fəqət anladım ki, qışqırmağa ehtiyac yoxdu, onsuz da Xudavəndi-aləm ürəyimizdən keçənlərdən xəbərdardır." Hekayədə belə bir ifadə də yer alır: "Xudaya, ömrü qısa olsa da kəpənək kimi yaşamaq yaxşıdı, kəpənək olmaq yaxşıdı – di gəl, adamlar kəpənəkləri də rahat yaşamağa qoymur." Göründüyü kimi, qəhrəman qısa ömürlü olsa da, azad və qayğısız bir varlıq kimi yaşamağı üstün tutur. Lakin bu arzu, real həyatın sərtliyi ilə ziddiyyət təşkil edir. Bu isə emosional və qeyri-məntiqi bir istək olaraq, qeyri-səlis məntiqin təzahürü kimi özünü göstərir. Eyni zamanda, kəpənəklərin uçuşu yalnız təbiətin gözəlliyini göstərmir, həm də qəhrəmanın daxili seçimlərini, arzularını və tərəddüdlərini metaforik şəkildə əks etdirir.

Hekayədə qəhrəmanın daxili tərəddüdlərini əks etdirən digər sitatlar da qeyri-səlis məntiq nümunəsi kimi diqqəti cəlb edir: "Bir anlığa ürəyimin ağrısının yox olub getməsinə heyfsləndim, çünki əsl ölüb qalmalı yerdə idim. Burası vardı ki, indi burda ölsəydim də, özüməbənzərlər məndən əl çəkməyəcəkdilər, meyidimi tapıb cansız bədənimin başına min bir oyun açacaqdılar" və ya "Qəribə əhvalda idim, elə bilirdim dayansam ruhum bədənimi tərk eləyəcək, durduğum yerdəcə yıxılıb qalacam". Bu düşüncələr qəhrəmanın psixologiyasında irrasional qorxuların və emosional gərginliyin mövcudluğunu göstərir. Sonuncu ifadə metaforik və qeyri-səlis narahatlığın bariz nümunəsidir. Beləliklə, fiziki və psixoloji vəziyyət bir-birinə qarışır və nəticə qəti şəkildə müəyyənləşmir. Buna baxmayaraq, qəhrəmanın daxili aləmi bütün mürəkkəbliyi ilə oxucuya aydın və təsirli şəkildə çatdırılır.Qeyd etmək lazımdır ki, bu daxili psixoloji qeyri-müəyyənlik qəhrəmanın davranışlarında da özünü göstərir. Onun nə seçimləri, nə də hərəkətləri tam məntiqi əsaslara söykənir. O, arxa yolla getməsini belə izah edir: "Bəxtimdən kənd camaatı ilə rastlaşmadım. Yəqin, arxa yolla, çoxdandır ayaq dəyməyən cığırla getdiyimdən idi". Bu nümunədən görünür ki, qəhrəman insanlardan uzaqlaşmaq istəyir, lakin bu istəyi rasional səbəblərlə izah etmir. Onun davranışları daha çox emosional impulslar və daxili tərəddüdlərlə müəyyənləşir ki, bu da qeyri-səlis məntiqin davranış səviyyəsində təzahürüdür.

Hekayədə dilin quruluşu və sintaksis də qeyri-səlis məntiq ifadəsini gücləndirən əsas vasitələrdəndir. Qısa və lakonik cümlələr, ani fikir dəyişmələri və daxili monoloqlar oxucuda zaman və məkan qavrayışında müəyyən qeyri-müəyyənlik yaradır. Məsələn: "Göyün üzü apaydın idi, günəşin şüaları cana-bədənə xoş hərarət gətirib isitsə də, yandırmırdı, tərlətmirdi". Bu cümlə mətndə həm fiziki, həm də emosional səviyyədə ziddiyyət yaradır və ona fəlsəfi dərinlik qazandırır. Burada insanın daxili aləmi keçmiş, indiki və gələcək arasında yerləşən keçidli və çoxqatlı məkan kimi təqdim olunur. Bu isə qeyri-səlis məntiqin sintaktik səviyyədə necə işlədiyini aydın şəkildə göstərir. Beləliklə, müəllif oxucunu yalnız hadisələrin ardıcıllığını izləməyə deyil, həm də insan təcrübəsinin mürəkkəb və qeyri-müəyyən mahiyyətini dərk etməyə yönəldir. Bu baxımdan, hekayədə müşahidə olunan dil və sintaksis xüsusiyyətləri yalnız formal baxımdan deyil, məzmun baxımından da əhəmiyyətlidir. Onlar qəhrəmanın daxili aləminin mürəkkəbliyini və qeyri-səlis məntiqini anlamağa imkan yaradır. Qeyri-səlis məntiq klassik məntiqdən fərqli olaraq qərarların yalnız "bəli" və "xeyr" kimi qəti olmadığını vurğulayır. Klassik məntiq hadisələri ardıcıllıq və səbəb-nəticə əlaqələri əsasında izah edir, lakin bu yanaşma insan psixologiyasının bütün qatlarını əhatə edə bilmir.

Beləliklə, Mübariz Cəfərlinin "Kəpənəklərə" hekayəsi qeyri-səlis məntiq vasitəsi ilə insanın daxili aləminin mürəkkəbliyini və ziddiyyətli təbiətini təsvir edir. Hekayə göstərir ki, həyat yalnız konkret səbəb-nəticə əlaqələri ilə izah olunmur və hər bir düşüncə, hiss və emosional reaksiya çoxqatlı və dəyişkən xarakter daşıyır. Qəhrəmanın tərəddüdləri, irrasional qorxuları,

qərarları və metaforik düşüncələri həm xarici hadisələr, həm də daxili psixoloji proseslər vasitəsilə təqdim olunur. Bu isə oxucunu qəhrəmanın mürəkkəb daxili aləmini daha dərindən hiss etməyə və anlamağa sövq edir.

Qeyri-səlis məntiq elementləri Mübariz Cəfərlinin "Milçəklərə" hekayəsində də aydın şəkildə özünü göstərir. Hekayə gündəlik həyatın sadə görünən, lakin emosional və psixoloji baxımdan mürəkkəb anlarını təqdim edir. Bu əsərdə təsvir olunan məqamlar sadəcə müşahidə səviyyəsində qalmır, insanın daxili aləmi ilə dərin metaforik əlaqələr yaradır. Xarakterlərin qərarsız davranışları, daxili ziddiyyətləri və sosial vəziyyətlər qarşısında tərəddüdləri qeyri-səlis məntiqin təzahürü kimi oxucuya çatdırılır. Müəllif obrazların psixoloji qatlarını yalnız hadisələrə reaksiyalarında deyil, həm də bu reaksiyaların arxasında dayanan dərin psixoloji səbəbləri göstərməklə təqdim edir. Bununla yazıçı oxucunu obrazların daxili dünyasına yönəldir, onların mübarizələrini və ziddiyyətli təcrübələrini daha yaxından dərk etməyə şərait yaradır. Bu əsərdə qeyri-səlis məntiqin dominantlığı hekayənin dərin psixoloji qatlarını üzə çıxarır və oxucunu obrazların mürəkkəb təcrübələrinə daha da yaxınlaşdırır.

Hekayədə milçəklərin arılarla müqayisəsi xüsusi diqqət doğurur. Müəllif qeyd edir ki, dünyada çoxsaylı növləri olan milçəklər, sayca daha az olan arılardan bəzi hallarda daha çevik və praktik davranış nümayiş etdirirlər. Bu metafora ilk baxışda sadə görünsə də, əslində idrakın mürəkkəb və çoxölçülü mahiyyətini ifadə edir. Hekayədə arı klassik, xətti və məqsədyönlü düşüncəni, milçək isə çevik, intuitiv və adaptiv düşüncə tərzini təmsil edir. Bu qarşılaşdırma idrakın sabit və təkölçülü olmadığını, situasiyadan asılı olaraq, dəyişdiyini göstərir və qeyri-səlis məntiq çərçivəsində daha aydın şəkildə izah olunur.

Hekayədə arı ilə milçəyin pəncərədəki kiçik bir deşikdən çıxmaq cəhdləri belə təsvir olunur: "Arı bayıra yol axtara-axtara min kərə özünü şüşəyə, özü də az qala eyni yerə vurub tələf olacaq. Milçəksə usanmadan, yorulmaq bilmədən dolanbac, ziqzaqlı şəkildə otağın hər tərəfində uçacaq, nəhayət, pəncərədəki balaca deşiyi tapıb bayıra çıxacaq. Bəzi adamlar da belədir. Ağıllı fikirləşincə dəli vurub çayı keçir". Göründüyü kimi, arı eyni istiqamətdə israr edərək çıxış tapa bilmir, milçək isə çevik və elastik hərəkətləri sayəsində məqsədinə çatır. Klassik məntiq baxımından bu situasiya paradoksal görünə bilər, çünki "arı daha ağıllıdır" qənaəti konkret bu epizodda özünü doğrultmur. Lakin qeyri-səlis məntiq kontekstində ağıllılıq anlayışı situasiyadan asılı olaraq dəyişir. Arının məqsədyönlü, lakin elastik olmayan davranışı qeyri-adi şəraitdə nəticəsiz qalır, milçəyin xaotik görünən hərəkətləri isə əksinə, çıxış yolunu tapmağa imkan verir.

Beləliklə, müəllif bu qarşılaşdırma vasitəsilə qeyri-səlis məntiqin imkanlarını nümayiş etdirir və oxucuya göstərir ki, uğur hər zaman ənənəvi və "düz" hesab olunan strategiyalarla əldə olunmur. Qeyri-səlis məntiq prizmasından baxdıqda, həqiqi üstünlük çevik adaptasiya, situasiyaya uyğunlaşma və alternativ yolları sınamaq bacarığı ilə ölçülür. Hekayə göstərir ki, idrakın gücü onun sərt qaydalara bağlılığında deyil, dəyişkən şəraitə uyğunlaşa bilməsindədir. Beləliklə, bəzən ən mükəmməl görünən planlar nəticəsiz qalır, sərt məntiq çıxış yollarını məhdudlaşdırır, lakin çevik və adaptiv düşüncə – milçəyin timsalında olduğu kimi – xaotik mühitdə belə uğur qazana bilir. Bu mənada qeyri-səlis məntiq klassik məntiqi inkar etməyən, əksinə, onu özündə ehtiva edən və daha geniş idrak modelini ifadə edən düşüncə sistemi kimi təqdim olunur.

Əvvəlki hekayələrdə, məsələn, "Kəpənəklərə" və "Milçəklərə", Mübariz Cəfərlinin insan psixologiyasını qeyri-səlis məntiq prizmasından təqdim etməsi oxucuda daxili ziddiyyətləri və qərarsız davranışları vurğuladı. Bu perspektiv "Kərtənkələlərə"də daha sıx və şəxsi səviyyədə, ailə münasibətləri və keçmiş travmalar üzərindən davam etdirilir.

Mübariz Cəfərlinin "Kərtənkələlərə" hekayəsi insanın daxili aləminin mürəkkəbliyini və emosional ziddiyyətlərini əks etdirir. Hekayə yataq otağında baş verir. Tavanın səkkiz lampasından yalnız biri yanır, taxtda cütlük uzanıb, beşikdə körpə yatır. Bu vizual detal oxucuda sa-

kitlik və gərginliyin eyni anda mövcud olduğu bir atmosfer yaradır və personajların psixoloji vəziyyətini daha təsirli edir. Hekayənin strukturu sadə olsa da, burada xarakterlərin psixoloji vəziyyətləri, onların qarşılıqlı münasibətləri və qeyri-səlis məntiq kontekstində həyatın mürəkkəbliyini anlamağa yönəlmiş təqdimat diqqəti cəlb edir. M. Cəfərli oxucuya hər bir xarakterin psixoloji vəziyyətini, qərarsızlığını və mürəkkəb təcrübələrini dərk etməyə imkan verir.

Qadın obrazı hekayənin ən mürəkkəb xarakterlərindən biri kimi təqdim olunur. Onun ərini bağışlamağa çalışarkən yaşadığı daxili mübarizə və keçmişin təsiri mətnin əsas emosional təməlini formalaşdırır. Qadın, ərinin ona qarşı etdiyi səhvləri bağışlamağa çalışsa da, daxili aləmindəki ziddiyyətlər buna mane olur. Hekayədə bu vəziyyət belə ifadə olunur: "Mən də elə ordaca sildim ərimi, sonralar neçə dəfə ayağıma düşüb yalvarsa da, bağışlaya bilmədim onu…" Bu sitat qadının keçmişə bağlı ağrılarını və ərinə qarşı formalaşmış etibarsızlığını aydın şəkildə üzə çıxarır. O, münasibətləri unutmağa və yenidən qurmağa cəhd etsə də, daxili psixoloji gərginlik buna mane olur. Bu isə obrazın psixoloji vəziyyətinin qeyri-sabitliyini və qeyri-səlis düşüncə modelini nümayiş etdirir.

Kişi obrazı isə münasibətləri daha çox sadələşdirməyə meylli kimi təqdim olunur. O, situasiyaları nizamlı və idarəolunan şəkildə qəbul etməyə çalışır, lakin bu zahiri sadəlik onun daxili emosional gərginliyini gizlədən mexanizm funksiyasını daşıyır. Kişinin münasibətlərə yanaşması onun daxili narahatlığını və qeyri-müəyyən psixoloji vəziyyətini dolayı şəkildə ifadə edir. Hekayədə bu vəziyyət belə ifadə olunur: "O zəng eləyir, ya sən? – O da, mən də... Ad günümüzdə bir-birimizi heç olmasa telefonla təbrik edirik... Burda nə var ki? Düşmənzad deyilik axı..." Bu ifadə münasibətlərin zahiri normallaşdırılmasına yönəlsə də, dərinlikdə emosional məsafənin və həll olunmamış gərginliyin mövcudluğunu göstərir.

Hekayədə qadının keçmişi ilə bağlı xatirələri onun indiki psixoloji vəziyyətinin formalaşmasında mühüm rol oynayır. Keçmiş travmatik təcrübələr onun emosional reaksiyalarını və qərarlarını müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir. Bu kontekstdə təqdim olunan sitat diqqəti cəlb edir: "Çünki o vaxtacan o uşağa heç kəs əl qaldırmamışdı, o uşaq bizə çox güvənirdi... Bəlkə, elə ona görə çox ağladı ilk dəfə atası onu vuranda..." Bu epizod qadının yaddaşında iz buraxmış travmatik hadisəni üzə çıxarır və onun ərinə qarşı etibarının necə sarsıldığını göstərir. Beləliklə, keçmiş təcrübə ilə indiki münasibət arasında səbəb-nəticə əlaqəsi xətti deyil, qeyri-səlis və çoxqatlı şəkildə qurulur.

Kişinin keçmişlə bağlı münasibəti isə fərqli psixoloji mexanizm üzərindən təqdim olunur. O, travmatik təcrübələri birbaşa ifadə etmək əvəzinə, onları ironik və zarafatvari formada təqdim etməyə çalışır. Hekayədə bu məqam belə ifadə olunur: "Dedi ki, elədi, buynuzların qoymayacaqdı səni maşına oturmağa... Maşın sürmək cəhənnəm, gərək metroya, avtobusa da ehtiyatla minəydin…" Bu ifadə zahirən yumoristik təsir bağışlasa da, əslində keçmişdə yaşanmış psixoloji təzyiqlərin və qorxuların dolayı ifadəsi kimi çıxış edir. Kişi keçmişlə barışmağa çalışsa da, həmin təcrübələrin təsirindən tam azad ola bilmir və bu, onun davranışlarında qeyri-sabitlik yaradır.

Mübariz Cəfərlinin "Kərtənkələlərə" hekayəsi insan ruhunun mürəkkəb təbəqələrini və psixoloji vəziyyətlərin qarşılıqlı təsirini anlamağa yönəlmiş bir əsərdir. Hekayədə qeyri-səlis məntiq xarakterlərin qərarsız davranışları, ziddiyyətli düşüncələri və qarışıq psixoloji vəziyyətləri üzərində qurulur. M. Cəfərli insanın daxili dünyasının müxtəlif qatlarını açaraq, münasibətlərin və keçmiş təcrübələrin insan psixologiyasına təsir mexanizmlərini oxucuya təqdim edir. Hekayə həm sosial, həm də əxlaqi kontekstləri əhatə edərək, insan davranışının "doğru–səhv" bölgüsünə sığmayan mürəkkəb xarakterini göstərir.

Beləliklə, üç hekayənin təhlili göstərir ki, Mübariz Cəfərlinin yaradıcılığında insan psixologiyası və sosial münasibətlər çoxqatlı və dinamik sistem kimi təqdim olunur. Hekayələrdə qeyri-səlis məntiq xarakterlərin psixoloji vəziyyətlərinin, daxili ziddiyyətlərinin və qərarsızlıqlarının üzə çıxarılmasında əsas interpretasiya çərçivəsi kimi çıxış edir. M. Cəfərli

hər bir əsərdə insanın emosional və psixoloji dərinliklərini fərqli rakurslardan işıqlandırır. “Kəpənəklərə” hekayəsində keçmişlə indiki zaman arasındakı gərginlik və daxili ziddiyyətlər ön plana çıxır, “Milçəklərə” hekayəsində gündəlik həyatın psixoloji mürəkkəbliyi və sosial münasibətlərin dəyişkənliyi vurğulanır, “Kərtənkələlər” hekayəsində isə daha sıx emosional qarşıdurma və münasibətlərin travmatik yaddaşla əlaqəsi önə çəkilir.

Müqayisə və nəticə: Mübariz Cəfərlinin “Kəpənəklərə”, “Milçəklərə” və “Kərtənkələlərə” hekayələri zahiri tematik yaxınlıqlarına baxmayaraq, eyni bədii ideyanın təkrarı deyil, əksinə, qeyri-səlis məntiqin müxtəlif ontoloji və idrak səviyyələrində sınaqdan keçirildiyi fərqli modellər kimi çıxış edir. Bu mətnləri birlikdə oxuduqda müəllifin məqsədinin sadəcə insan psixologiyasını təsvir etmək deyil, onun qeyri-sabit və çoxqatlı təbiətini bədii düşüncənin əsas obyektinə çevirmək olduğu aydınlaşır.

“Kəpənəklərə” hekayəsində qeyri-səlislik şüurun daxili mexanizmi kimi işləyir. Burada hadisələrdən daha çox onların subyektiv qavranılma forması ön plana keçir və nəticədə reallıq sabit obyektivlik statusunu itirir. Qəhrəmanın düşüncə axını klassik məntiqin xətti ardıcıllığını tam pozmasa da, onu davamlı şəkildə relativləşdirir. Mətn oxucunu səbəb–nəticə axtarışından uzaqlaşdıraraq birbaşa şüurun qeyri-sabit axını ilə üz-üzə qoyur. Beləliklə, qeyri-səlis məntiq burada bədii üsul olmaqdan çıxaraq varoluş təcrübəsinin strukturuna çevrilir.

“Milçəklərə” hekayəsində isə qeyri-səlislik artıq daxili təlatüm deyil, idrakın işləmə prinsipi kimi təqdim olunur. Arı və milçək qarşılaşdırması sadə alleqoriya təsiri bağışlasa da, mətnin semantik dərinliyində bu qarşıdurma normativ rasionalizmin ifşasına xidmət edir. Müəllif göstərir ki, məqsədyönlü və “düzxətli” düşüncə hər zaman effektiv deyil, əksinə, situasiyanın qeyri-müəyyənliyi elastik, fragmentar və bəzən xaotik strategiyaları daha məhsuldar edir. Burada qeyri-səlis məntiq abstrakt nəzəri model kimi deyil, praktiki idrak mexanizmi kimi əsaslandırılır.

“Kərtənkələlərə” hekayəsi isə bu üçlük daxilində ən mürəkkəb və semantik baxımdan ən gərgin mətn kimi çıxış edir. Burada qeyri-səlislik artıq nə metaforik, nə də kognitiv səviyyə ilə məhdudlaşır, o, birbaşa insan münasibətlərinin strukturuna daxil olur. Qadın və kişi obrazları nə bağışlama, nə imtina, nə də unutma mövqeyində sabitləşə bilir. Onların psixoloji vəziyyəti sabit seçimlərdən deyil, paralel şəkildə mövcud olan ziddiyyətli impulsların toplusundan ibarətdir. Bu isə mətnin etik koordinatlarını qeyri-müəyyənləşdirir və onu ənənəvi psixoloji realizm çərçivəsindən çıxararaq, daha mürəkkəb – post-rasional interpretasiya sahəsinə daxil edir.

Hər üç hekayə eyni ideyanı – insan təcrübəsinin qeyri-müəyyənliyini – paylaşsa da, bu qeyri-müəyyənlik müxtəlif səviyyələrdə lokallaşdırılır: şüurda, idrakda və münasibətlərdə. Məhz bu struktur diferensiasiyası Cəfərlinin nəsrini təkrardan qoruyur və onu konseptual bütövlük daxilində inkişaf edən dinamik sistemə çevirir.

Nəticə etibarilə, Mübariz Cəfərlinin hekayələri qeyri-səlis məntiqi sadəcə təsvir etmir, onu bədii təcrübə kimi reallaşdırır. Bu mətnlərdə qeyri-səlislik nəzəri konstruksiya deyil, insanın dünyanı dərketmə və yaşama forması kimi çıxış edir. Müəllif klassik məntiqin sərhədlərini polemik şəkildə dağıtmağa çalışmır, o, daha incə və təsirli bir yol seçir – insan təcrübəsini həmin sərhədlərə sığmayan şəkildə göstərir. Bu baxımdan Cəfərlinin nəsrində qeyri-səlis məntiq metod deyil, estetik prinsip statusu qazanır. Və məhz bu prinsip onun mətnlərini yalnız interpretasiya olunan deyil, eyni zamanda düşüncə tərzini dəyişdirən ədəbi hadisəyə çevirir. Oxucu bu hekayələrdə hazır cavablar tapmır – əksinə, cavabların qeyri-mümkünlüyü ilə üzləşir. Müasir ədəbiyyatın ən ciddi estetik çağırışlarından biri də elə budur.

## “XƏZƏR”DƏ SÜNİ İNTELLEKT MÖVZUSUNDA ELMİ SEMİNAR

## ACADEMIC SEMINAR ON ARTIFICIAL INTELLIGENCE HELD AT KHAZAR UNIVERSITY





*Nəzrin Axundzadə*



Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin və İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə mayın 1- də Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) müəllimi Nəzrin Axundzadənin “Maliyyə sektorunda süni intellekt əsaslı sistemlərin idarə olunması: Azərbaycan üçün aspektlər” mövzusunda elmi seminarı təşkil olunub. Seminarda iştirak edən tələbələr suni intellektin maliyyə bazarlarının dayanıqlılığına təsiri, onun idarə olunması və inkişafında rolu, həmçinin, Azərbaycan maliyyə bazarının dayanıqlılığına suni intellekt texnologiyalarının potensial tətbiqi haqqında məlumat alıb, müvafiq suallar veriblər.



On May 1, an academic seminar titled "Governance of AI-Based Systems in the Financial Sector: Aspects for Azerbaijan" was organized by the Department of Economics and Management and the School of Economics and Management at Khazar University. The seminar was delivered by Nazrin Akhundzade, a lecturer at the International School of Economics (ISE) of UNEC. Students in attendance received information on the impact of AI on the stability of financial markets, its role in governance and development, as well as the potential application of AI technologies to the stability of Azerbaijan's financial market, and posed relevant questions.

## DEPARTAMENT MÜDİRİNİN KİTAB TƏQDİMATI




Mayın 2-də "Litera" Kitab Evində Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri dosent Orxan Vəliyevin "Modern Azərbaycanın doğuluşu" monoqrafiyasının təqdimatı keçirilib. Kitab "MİMTA Yayımları" tərəfindən nəşr olunub.

Təqdimatda çıxış edən MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov nəşrin əhəmiyyətini vurğulayaraq bildirib ki, əsər Azərbaycanın milli kimliyi və dövlət quruculuğu tarixini yeni elmi-nəzəri baxışla təhlil edir. Tədbirdə BP Azərbaycan şirkətinin vitse-prezidenti Dr. Bəxtiyar Aslanbəyli, tarixçi Əkbər Nəcəf, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, dosent Mətin Məmmədli, tarixçi dosent Nigar Gözəlova və tarixçi Dr. Dilqəm Əhməd də çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, kitab maarifçilikdən siyasi millətçiliyə qədər uzanan inkişaf yolunu elmi əsaslarla araşdırır, xüsusilə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına siyasi nəzəriyyə prizmasından yanaşır. Bildirilib ki, monoqrafiya müəllifin Türkiyədə müdafiə etdiyi dissertasiya əsasında hazırlanıb və daha əvvəl türk və fars dillərində də nəşr edilib. Sonda çıxışçılar müəllifə gələcək fəaliyyətində uğurlar arzulayıblar. Tədbir füyuzat.az tərəfindən işıqlandırılıb.

Keçid: *"Modern Azərbaycanın doğuluşu" kitabının təqdimatı keçirilib - Füyuzat Jurnalı*

## DEPARTMENT HEAD'S BOOK PRESENTATION

On May 2, a presentation of the monograph "The Birth of Modern Azerbaijan" by Orxan Valiyev, Assoc. Prof. and Head of the Political Science and Philosophy Department at Khazar, was held at the "Litera" Book House. The book was published by "MIMTA Publications."

Parviz Amirov, Executive Director of the MIMTA Foundation, who addressed the audience at the presentation, emphasized the significance of the publication, stating that the work analyzes the history of Azerbaijan's national identity and state-building from a new scientific-theoretical perspective. Also delivering remarks at the event were Dr. Bakhtyar Aslanbayli, Vice President of BP Azerbaijan, historian Akbar Najaf, Assoc. Prof. Matin Mammadli, Head of Department at the Center for Analysis of International Relations, historian Assoc. Prof. Nigar Gozelova, and historian Dr. Dilgam Ahmad.

Speakers noted that the book examines, on a scientific basis, the path of development from the Enlightenment to political nationalism, approaching, in particular, the establishment of the Azerbaijan Democratic Republic through the prism of political theory. It was stated that the monograph was prepared on the basis of the author's dissertation defended in Türkiye and had previously been published in Turkish and Persian as well. In conclusion, the speakers wished the author success in his future endeavors.

The event was covered by fuyuzat.az.

Link: *"Modern Azərbaycanın doğuluşu" kitabının təqdimatı keçirilib - Füyuzat Jurnalı*

## BUXARADA BEYNƏLXALQ SİMPOZİUM

Özbəkistanın qədim elm və mədəniyyət mərkəzi olan Buxara şəhərində aprelin 6-da Qafqaz Universitetinin Əbül-Həsən Xaraqani adına Tətbiqi Araşdırmalar Mərkəzinin (Türkiyə) və Qafqaz Universiteti İlahiyyat fakültəsinin öndərliyi, Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu (Azərbaycan) və Beynəlxalq Buxara Universitetinin (Özbəkistan) birgə təşkilatçılığı ilə Türk dünyasının mənəvi irsinə həsr olunmuş beynəlxalq simpozium keçirilib. Beynəlxalq Buxara Universitetinin ev sahibliyi ilə keçirilən "I Beynəlxalq Türk dünyasında ortaq dəyərlərin ehyası və inşası simpoziumu"nda Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Malayziya, Pakistan və İngiltərə daxil olmaqla, 7 ölkədən məruzəçilər iştirak edib.

Xəzər Universitetini konfransda Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun koordinatoru Dr.Fəridə Seyidova təmsil edib. Bölmə iclasları boyunca Türk dünyasının ortaq mədəni dəyərləri dil, ədəbiyyat, folklor, tarix, din və toplumsal yaddaş kontekstində araşdırılıb, fənlərarası baxış bucağı ilə yüksək səviyyəli elmi müzakirələr aparılıb.

## INTERNATIONAL SYMPOSIUM IN BUKHARA

An international symposium dedicated to the spiritual heritage of the Turkic world was held on April 6, in Bukhara - the ancient center of science and culture of Uzbekistan - jointly organized by the Applied Research Center named after Abu al-Hasan al-Kharaqani of Caucasus University (Türkiye), the Faculty of Theology of Caucasus University, the Mevlana Literary-Philosophical Research Institute of Khazar University (Azerbaijan), and International Bukhara University (Uzbekistan). The "1st International Symposium on the Revival and Construction of Common Values in the Turkic World," hosted by International Bukhara University, brought together speakers from 7 countries, including Türkiye, Azerbaijan, Uzbekistan, Kazakhstan, Malaysia, Pakistan, and the United Kingdom.

Khazar University was represented at the conference by Dr. Farida Seyidova, coordinator of the Mevlana Literary-Philosophical Research Institute. Throughout the panel sessions, the common cultural values of the Turkic world were examined in the context of language, literature, folklore, history, religion, and collective memory, with high-level scholarly discussions conducted from an interdisciplinary perspective.

## "XƏZƏR"İN ƏMƏKDAŞI TÜRKİYƏ UNİVERSİTETİNDƏ

## KHAZAR UNIVERSITY FACULTY MEMBER AT A UNIVERSITY IN TÜRKIYE

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin dosenti Ülvi Babasoy aprelin 6-10-da Erasmus proqramı çərçivəsində Türkiyənin Hasan Kalyoncu Universitetində olub. Hasan Kalyoncu Universitetinin Memarlıq və gözəl sənətlər

Ulvi Babasoy, Assoc. Prof. at the Department of Languages and Literatures of Khazar University, visited Hasan Kalyoncu University in Türkiye from April 6 to 10, within the framework of the Erasmus programme. He delivered lectures to students

fakültəsinin tələbələrinə "Ədəbiyyat və memarlıqda multidisplinar yanaşmalar", "Məkanın poetikası və psixologiyası", "Narrativ memarlıq və semiotik metodlar", "Ədəbiyyat və memarlıqda fenomenoloji yanaşma", "Ekfrasis və vizual tərcümə", "Azərbaycan ədəbiyyatında memarlıq elementləri",

"Türkiyə və Qərb ədəbiyyatında memarlıq elementləri" və s. mövzularda mühazirələr deyib. Dərslərdə Hasan Kalyoncu Universitetinin Memarlıq və gözəl sənətlər fakültəsinin dekanı, Prof. Gülname Özdemir, Memarlıq kafedrasının müdiri, Dr. Meltem Ararat, fakültənin digər professor-müəllim heyəti və tələbələr iştirak edib. Nəticədə, memarlıq və ədəbiyyatın iki fərqli disiplin kimi estetik və poetik tendensiyaları müzakirə edilib. Memarlıq və gözəl sənətlər fakültəsinin dekanı, Prof. Gülname Özdemir mühazirələrin tələbələrin yaradıcı düşüncə və təfəkkürünə müsbət təsir edəcəyini bildirib. Ülvi Babasoy tələbələr və professor-müəllim heyətinin suallarını cavablandırıb.



*Ülvi Babasoy*

of the Faculty of Architecture and Fine Arts at Hasan Kalyoncu University on topics including "Multidisciplinary Approaches in Literature and Architecture," "The Poetics and Psychology of Space," "Narrative Architecture and Semiotic Methods," "Phenomenological Approaches in Literature and Architecture," "Ekphrasis and Visual Translation," "Architectural Elements in Azerbaijani Literature," "Architectural Elements in Turkish and Western Literature," and others. The lectures were attended by Prof. Gülname Özdemir, Dean of the Faculty of Architecture and Fine Arts at Hasan Kalyoncu University, Dr. Meltem Ararat, Head of the Department of Architecture, as well as other faculty members and students. As a result, the aesthetic and poetic tendencies of architecture and literature as two distinct disciplines were discussed. Dean of the Faculty of Architecture and Fine Arts Prof. Gülname Özdemir stated that the lectures would have a positive impact on students' creative thinking and intellectual development. Ulvi Babasoy answered questions from both students and faculty members.



*Orxan Vəliyev,  Tolqa Bilener*

## DEPARTAMENT MÜDİRİ QALATASARAY UNİVERSİTETİNDƏ

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev Türkiyənin Qalatasaray Universiteti Strateji Araşdırmalar Mərkəzinin müdiri Dos. Tolqa Bilenerin dəvəti ilə aprelin 19-dan 23-dək universitetdə müxtəlif proqramlarda iştirak edib.

Aprelin 21-də Dos. Vəliyev proqram çərçivəsində azərbaycanlı, türk, fransız, belçikalı və yunan tələbələr üçün mühazirə oxuyub. Seminar "Beynəlxalq təhlükəsizlik dinamikasından regional dinamikaya: İran münaqişəsinin Cənubi Qafqaza təsiri" ("From International Security Dynamics to Regional Dynamics: the Impact of the Iran Conflict on the South Caucasus") mövzusuna həsr olunub.

Dos. O.Vəliyev, eyni zamanda, Qalatasaray universitetinin Beynəlxalq münasibətlər kafedrası tərəfindən təşkil olunan beynəlxalq siyasət və təhlükəsizlik mövzusunda konfransa qatılıb. Kafedranın müəllim heyəti ilə görüş də keçirilib.

Keçid: From International Security to Regional Dynamics: The Impact of the Iran Conflict on the South Caucasus | Etkinlik | Galatasaray Üniversitesi

## DEPARTMENT HEAD AT GALATASARAY UNIVERSITY

Khazar University's Head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, at the invitation of Assoc. Prof. Tolga Bilener, Director of the Strategic Research Center at Galatasaray University in Türkiye, participated in various programs at the university from April 19 to 23.

On April 21, Assoc. Prof. Valiyev delivered a lecture within the program framework for Azerbaijani, Turkish, French, Belgian, and Greek students. The seminar was dedicated to the topic "From International Security Dynamics to Regional Dynamics: the Impact of the Iran Conflict on the South Caucasus."

Assoc. Prof. Valiyev also participated in a conference on international politics and security organized by the Department of International Relations at Galatasaray University. A meeting with the department's teaching staff was also held.

Link: From International Security to Regional Dynamics: The Impact of the Iran Conflict on the South Caucasus | Etkinlik | Galatasaray Üniversitesi




## *XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI TESIAD-IN MƏSLƏHƏT ŞURASININ TOPLANTISINDA*

## *KHAZAR UNIVERSITY STAFF MEMBER ATTEND TESIAD ADVISORY COUNCIL MEETING*

Xəzər Universitetinin İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli aprelin 25-də TESIAD-ın İstanbul şəhərində keçirilən Məsləhət Şurasının toplantısında iştirak edib.

" ABŞ-İsrail-İran Savaşının Türkiyə və Dünya

Alovsat Amirbayli, Director of Public Relations and Media at Khazar University, participated in the TESIAD Advisory Council meeting held in Istanbul on April 25.

Representatives from Türkiye and various countries around the world attended the expanded meeting of the TESIAD Board of Directors, held on

İqtisadiyyatına təsiri" mövzusunda TESIAD-ın İdarə Heyətinin genişləndirilmiş toplantısında Türkiye və dünyanın müxtəlif ölkələrindən nümayəndələr təmsil olunurdu.

Toplantıda TESIAD Yüksək İstişarə Kurulu Başkanı Dr. İlyas Bozkurt, TESAM Yüksək İstişarə Heyəti Başkanı, Prof. Dr. Hasan Koni, TESIAD Genel Başkanı Dr. Halil İbrahim Yılmaz, Türkistan Toyu Yönetim Kurulu Başkanı Talha Zeytinci, sabiq səfir Dr. Hüseyin Avni Bıçaklı, səfir İskender Okyay, E.Hava Tuğgeneralı Hüseyn Fazla, E. Tümgeneral Mehmet Okkan, Türk Milli Birlik Hərəkatı Genel Başkanı Erdoğan Saraç, Hollandiya Türk Evi Araşdırmalar Mərkəzi Başkanı Veyis Güngör və digərləri iştirak ediblər.

Məsləhət Şurasının toplantısında türkiyəli iş adamları, Hollandiya, Makedoniya, Azərbaycan və digər ölkələrdən olan nümayəndələr bolgədə yaranmış siyasi, hərbi və iqtisadi vəziyyətlə bağlı fikirlərini bildiriblər.

Toplantını giriş sözü ilə TESIAD Yüksək İstişarə Kurulu Başkanı Dr. İlyas Bozkyrt açıb.

Mətbuata tam qapalı keçən və təxminən 6 saat davam edən toplantıda geniş müzakirələr olub.

Müzakirələrdən sonra qonaqlar Çamlıca Kulәsindən İstanbulun füsünkar mənzərəsini seyr ediblər və xatirə şəkilləri çəkilib.




*Kərəm Ataş, İskender Okyay, Əlövsət Əmirbəyli, Hüseyin Avni Bıçaklı, M.Talha Zeytinci*

the topic "The Impact of the US-Israel-Iran War on the Economy of Türkiye and the World."

In attendance at the meeting were Dr. İlyas Bozkurt, Chairman of the TESIAD Supreme Advisory Council; Prof. Dr. Hasan Koni, Chairman of the TESAM Supreme Advisory Board; Dr. Halil İbrahim Yılmaz, President of TESIAD; Talha Zeytinci, Chairman of the Board of Türkistan Toyu; former Ambassador Dr. Hüseyin Avni Bıçaklı; Ambassador İskender Okyay; Retired Air Brigadier General Hüseyin Fazla; Retired Major General Mehmet Okkan; Erdoğan Saraç, President of the Turkish National Unity Movement; Veyis Güngör, Chairman of the Netherlands Turkish House Research Centre; and others.

At the Advisory Council meeting, Turkish businesspeople and representatives from the Netherlands, Macedonia, Azerbaijan, and other countries shared their views on the political, military, and economic situation that has emerged in the region.

The meeting was opened with introductory remarks by TESIAD Supreme Advisory Council Chairman Dr. İlyas Bozkurt.

The meeting, which was completely closed to the press and lasted approximately six hours, featured extensive discussions.

Following the discussions, guests enjoyed the enchanting panoramic view of Istanbul from the Çamlıca Tower and commemorative photographs were taken.

# DÜNYANIN ƏN GÖZƏL KƏNDİ



İspaniyanın cənubunda yerləşən Frigiliana ağ rəngli evləri, çiçəklərlə bəzədilmiş dar küçələri və Aralıq dənizi mənzərələri ilə dünyanın ən gözəl kəndi seçilib.

Kəndin tarixi mərkəzi bugünədək orijinallığını qoruyub saxlayıb. Ənənəvi Əndəlüs memarlığı üslubunda inşa edilmiş tikililər və dar küçələr ziyarətçilərə keçmişin ovqatını yaşamaq imkanı yaradır. Bu xüsusiyyətlərinə görə, Frigiliana həm təbii gözəlliyi, həm də mədəni irsi ilə diqqət çəkir.

Kəndin Kosta del Sol sahil xəttinə yaxın yerləşməsi isə ona əlavə üstünlük qazandırır. Beləliklə, Frigiliana ziyarətçilərə həm dağ, həm də dəniz qonaqpərvərliyi göstərir.



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Fizika müəllimliyi
- Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi
- Elektrik və elektronika mühəndisliyi
- Memarlıq
- İnformasiya təhlükəsizliyi

### 2 QRUP

- Biznesin idarə edilməsi
- İqtisadiyyat
- Maliyyə
- Marketinq
- Menecment
- Mühasibat
- Turizm işinin təşkili
- Coğrafiya müəllimliyi
- Tarix-coğrafiya müəllimliyi

### 3 QRUP

- Filologiya (ingilis dili və ədəbiyyatı)
- Tərcümə (ingilis, ərəb, fars və Çin dilləri)
- Xarici dil müəllimliyi (ingilis dili üzrə)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Politologiya
- Beynəlxalq münasibətlər
- Regionşünaslıq

### 4 QRUP

- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti
- Biotexnologiya

### 5 QRUP

- Dizayn (qrafik dizayn, interyer dizaynı və landşaft dizaynı)
- Təsviri incəsənət müəllimliyi